*Dinimiz milli-mənəvi sərvətimizdir.* HEYDƏR ƏLİYEV

# CƏMİYYƏT VƏ DİN

Təsisçi: AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ www.scara.gov.az № 06 (392) / İYUN 2024-CÜ İL


## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK



Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm.

Dünya müsəlmanlarının mənəvi həmrəyliyinin təcəssümü olan Qurban bayramında mömin insanlar Allah və din yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirmək fürsəti qazanır, Uca Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinə və elmi-fəlsəfi fikir xəzinəsinə misilsiz töhfələr vermiş Azərbaycan xalqının dünyagörüşünün təşəkkülündə və milli-mədəni inkişafında İslam dini mühüm mərhələ təşkil edir. Ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları ölkəmizdə qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında mütərəqqi islami dəyərlərin rolu danılmazdır.

Dini bayramlar, o cümlədən Qurban mərasimləri cəmiyyətimizdə milli-mənəvi birliyin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsinə çevrilir. Bu mübarək bayram günlərində ölkəmizin hər yerində geniş xeyriyyəçilik və sosial yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Xalqımızın firavanlığı və əmin-amanlığı naminə etdiyiniz duaların və kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hər birinizə səmimi təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 14 iyun 2024-cü il



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti Gürcüstanda səfərdə olub

Səh. 3



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi Fəxri Xiyabanı ziyarət edib

Səh. 4

# PREZİDENT İLHAM ƏLİYEVİN ƏL-ƏZHƏRİ ŞƏRİFİN ŞEYXİ, BÖYÜK İMAM ƏHMƏD MƏHƏMMƏD ƏHMƏD ƏL TAYYİB İLƏ GÖRÜŞÜ OLUB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 8-də Qahirədə Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşü olub.

Görüşdə Prezident İlham Əliyev Əl-Əzhərdə ikinci dəfə olduğunu xatırlayıb, Misirə rəsmi səfəri çərçivəsində yenidən burada olmağından və Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşündən məmnunluğunu bildirib.



Dövlətimizin başçısı Azərbaycan-Misir münasibətlərinin çox yaxşı səviyyədə olduğunu, ölkələrimiz arasında tarixi əlaqələrin mövcudluğunu qeyd edib. Prezident İlham Əliyev bütövlükdə ərəb dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsinin Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanda dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun inkişafı ilə bağlı mühüm tədbirlərin keçirildiyini, ölkəmizin dinlərarası dialoqa öz töhfəsini verdiyini bildirib, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyibi ölkəmizə səfərə dəvət edib.

Azərbaycan Prezidenti ölkəmizin bu il COP29-a ev sahibliyi edəcəyini diqqətə çatdırıb. Prezident İlham Əliyev Azərbaycanın Əl-Əzhər ilə birlikdə dini liderlərin növbəti görüşünün COP29 çərçivəsində keçirilməsi təşəbbüsü ilə çıxış etdiyini vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycan torpaqlarının otuz ilə yaxın müddətdə işğal altında qaldığını xatırladaraq, işğal dövründə Azərbaycanın İslam dininə aid maddi-mədəniyyət abidələrinin, o cümlədən 67 məsciddən 65-nin tamamilə dağıdıldığını diqqətə çatdırıb. Prezident İlham Əliyev bu münaqişənin həllinin siyasi yolla mümkün olmadığını təəssüf hissi ilə vurğulayaraq, Azərbaycanın özünümüdafiə hüququndan istifadə edib işğala son qoyduğunu, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini deyib. Dövlətimizin başçısı azad olunmuş ərazilərdə məscidlərin, İslam irsinin bərpası istiqamətində tədbirlərin həyata keçirilməsinə başlandığını, artıq beş məscidin bərpa olunduğunu bildirib. Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan İslam həmrəyliyinə töhfə verir və bu istiqamətdə qardaş müsəlman ölkələri ilə birlikdə səylərini davam etdirir.

Azərbaycan Prezidenti Şuşa şəhərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasının və bu çərçivədə Şuşada keçirilən tədbirlərin önəmini vurğulayıb. Dövlətimizin başçısı, həmçinin vaxtilə Şuşada mövcud olmuş 17 məsciddən 16-sının işğal dövründə tamamilə dağıdıldığını deyib.

Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib bu ziyarətə görə dövlətimizin başçısına təşəkkürünü bildirib və Misirlə Azərbaycan arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd edib. O, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsindən məmnunluğunu bildirib. COP29-a dəvətə görə təşəkkürünü bildirən Əhməd Məhəmməd Əhməd Əl Tayyib bu tədbirdə məmnunluqla iştirak edəcəyini deyib.

Əl-Əzhəri Şərifin şeyxi Bakıda dünya dini liderlərinin II Sammitinin keçirildiyini xatırladaraq, Azərbaycanın İslam həmrəyliyinə verdiyi töhfəyə görə Prezident İlham Əliyevə şəxsən təşəkkürünü bildirib və COP29 çərçivəsində də dini liderlərin toplantısının keçirilməsi üçün birgə işlərin aparıldığını qeyd edib.

O, Əl-Əzhəri Şərifin Azərbaycanda ərəb dilinin tədrisinə öz dəstəyini verməyə hazır olduğunu vurğulayıb, Əl-Əzhərdə azərbaycanlı tələbələrin də təhsil aldıqlarını diqqətə çatdırıb.

Ölkəmizdə ərəb dilinin tədrisinə dəstək niyyətinə görə təşəkkürünü ifadə edən Prezident İlham Əliyev tarixən Azərbaycanda ərəb dilinin və İslam mədəniyyətinin tədqiqinə və tədrisinə böyük diqqət yetirildiyini vurğulayıb, Bakı Dövlət Universitetində şərqşünaslıq fakültəsinin, Azərbaycan Milli Elmlər Akademiyasında Şərqşünaslıq İnstitutunun fəaliyyət göstərdiyini qeyd edib.

Sonra xatirə hədiyyələri təqdim olunub.

## Səmərqənddə İslam Əməkdaşlığı Təşkilatının Gənclər Forumu keçirilib

Özbəkistanda Qlobal Gənclər Festivalı çərçivəsində İslam Əməkdaşlığı Təşkilatının (İƏT) Gənclər Forumu keçirilib.

Özbəkistan mediasına istinadən, tədbirdə dünyanın 92 ölkəsindən 700-dən çox nümayəndə iştirak edib.

Səmərqənddə keçirilən tədbirdə müxtəlif mövzulara, o cümlədən gənclərin tərbiyəsində İslam dininin əhəmiyyətinə dair fikir mübadiləsi aparılıb.

Qlobal Gənclər Festivalı iyunun 26-dan 30-dək Özbəkistanın beş şəhərində: Daşkənd, Səmərqənd, Buxara, Cızak və Xivədə keçirilib. Tədbir 150 ölkədən gənclər təşkilatlarının minə yaxın liderini bir araya gətirib.



# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti Gürcüstanda səfərdə olub



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanda səfərdə olub.

İyunun 12-də nümayəndə heyəti Tbilisinin mərkəzindəki Heydər Əliyev parkında Azərbaycan xalqının Ümummilli Liderinin abidəsini ziyarət edib. Ulu Öndərin abidəsi önünə əklil qoyulub, xatirəsi ehtiramla yad edilib.

Nümayəndə heyətinin üzvləri, həmçinin Tbilisidəki Qəhrəmanlar Meydanında Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəmanların xatirəsini yad edib, abidə önünə əklil qoyublar.

Daha sonra nümayəndə heyəti Gürcüstan



Patriarxlığında görüş keçirib. Bütün Gürcüstan Katalikos-Patriarxının xorepiskopu, mitropolit Teodor ilə görüş zamanı Dövlət Komitəsinin sədri Ramin Məmmədov iki ölkə arasındakı dostluq və əməkdaşlıq münasibətlərinə diqqət çəkərək, dinlər və mədəniyyətlərarası dialoqun əhəmiyyətini vurğulayıb.

Qarşılıqlı əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini qeyd edən mitropolit Teodor bu səfərin əməkdaşlığın daha da dərinləşməsinə xidmət göstərəcəyinə əminliyini ifadə edib. Görüş əsnasında din sahəsində əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Nümayəndə heyəti Tbilisidəki Cümə məscidində də olub. Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və nümayəndə heyətinin üzvləri Gürcüstan Müsəlmanları İdarəsinin din xadimləri ilə görüşüb, məscidə Azərbaycan dilində nəşr edilmiş "Qurani-Kərim" hədiyyə ediblər.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasındakı dostluq münasibətləri, ikitərəfli əlaqələrin inkişafında dini qurumların rolu ilə bağlı müzakirələr aparılıb.

Azərbaycanın malik olduğu nümunəvi multikulturalizm və tolerantlıq modeli, ölkəmizdəki dövlət-din münasibətlərindən bəhs edən R.Məmmədov Prezident İlham Əliyevin dini sahəyə daim diqqət və qayğı göstərdiyini, bu münasibət sayəsində nümunəvi birgəyaşayış mühitinin daha da möhkəmləndiyini qeyd edib. Komitə sədri Gürcüstandakı həmvətənlərimizin azərbaycanlı kimliyinə, milli-mənəvi dəyərlərə bağlılığının, bu dəyərlərin qorunub saxlanmasının əhəmiyyətini vurğulayıb.

Azərbaycan nümayəndə heyəti Tbilisidəki Botanika bağında görkəmli azərbaycanlıların dəfn olunduğu panteonu da ziyarət edib. Nümayəndə heyətinin üzvləri Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları – Fətəli Xan Xoyski, Həsən bəy Ağayev, böyük ədiblər - Mirzə Fətəli Axundov və onun ailə üzvləri, Mirzə Şəfi Vazehin məzarları üzərinə gül dəstələri düzüblər, onların xatirəsini ehtiramla yad ediblər.

***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstana səfər çərçivəsində iyunun 13-də bu ölkənin Dini Məsələlər üzrə Dövlət Agentliyinin rəhbəri Zaza Vaşakmadze ilə görüşüb.

Dövlət Komitəsinin sədri iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin davamlı olaraq inkişaf etdiyini vurğulayaraq, bu kontekstdə dini sahədə də əlaqələrin dərinləşdirilməsinin perspektivlərinə toxunub. Ramin Məmmədov qarşılıqlı səfərlər çərçivəsində aparılan müzakirələrin qurumlar arasında əməkdaşlığın genişlənməsində mühüm rol oynadığını bildirib.

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze müasir dövrdə dini icmalar arasında əlaqələrin inkişafının vacib olduğunu qeyd edib. Gürcüstanın din sahəsində əldə etdiyi nailiyyətlərdən danışan Z.Vaşakmadze müsəlman icmasının müstəqil fəaliyyəti və inkişafına dövlət tərəfindən verilən dəstəyi vurğulayıb. Azərbaycanın dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində qanunvericilik aktlarının öyrənildiyini və bu istiqamətdə təcrübə mübadiləsinin faydalı olacağını bildirib.

Tərəflər mövcud əlaqələr və əməkdaşlığın inkişafı barədə müzakirə aparıblar.

***

Komitə sədrinin başçılıq etdiyi nümayəndə heyəti iyun ayının 13-də Rustavi və Qardabani şəhərlərində olub. Nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin Rustavi şəhərində yerləşən abidəsini ziyarət edib. Ulu Öndərin abidəsi önünə gül dəstələri düzülüb, xatirəsi ehtiramla yad edilib.

Nümayəndə heyəti Rustavi şəhərində yerləşən "Cümə" məscidini ziyarət edib. Məscidin dini icmasının üzvləri ilə müxtəlif məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. Ramin Məmmədov Gürcüstanda yaşayan



azərbaycanlıların dini dəyərlərə, milli və etnik köklərə bağlılığının böyük əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. Dövlət Komitəsinin sifarişi ilə çap edilmiş kitablar məscidə hədiyyə edilib.

Dövlət Komitəsinin sədri Ramin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Qardabani şəhərindəki "Marağa" məscidini ziyarət etdikdən sonra "Əl-Hikmət" mərkəzinə gəlib. Burada Gürcüstandakı soydaşlarımıza göstərilən diqqət və qayğıdan, humanitar, mədəniyyət, təhsil sahələrində, o cümlədən dini icmaların inkişafına verilən dəstəkdən bəhs edilib. Dövlət Komitəsinin sədri Gürcüstandakı



azərbaycanlıların milli-mənəvi dəyərlərə bağlılığının qorunub saxlanılmasının Azərbaycan dövlətinin daim diqqət mərkəzində olduğunu vurğulayıb.

İyunun 13-də nümayəndə heyətinin Gürcüstana səfəri başa çatıb.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi Fəxri Xiyabanı ziyarət edib

İyunun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 23-cü ilinin tamam olması münasibətilə Komitə, tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi və əməkdaşları Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib, məzarı önünə gül dəstələri düzülüb.

Qeyd edək ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixli 512 nömrəli Fərmanı ilə yaradılıb. Komitənin əsas fəaliyyət istiqaməti Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə müvafiq olaraq dini etiqad azadlığının həyata keçirilməsi üçün münasib şəraitin yaradılması ilə bağlıdır. Dövlət Komitəsinin vəzifələri sırasına dini etiqad azadlığının təmin olunması, dini etiqad azadlığı sahəsində vahid dövlət siyasətinin formalaşması, bu siyasətin həyata keçirilməsi, dövlət-din münasibətlərinin tənzimlənməsi və inkişafının təmin edilməsi, dini etiqad sahəsində maarifləndirmə işinin aparılması, dini qurumların dövlət qeydiyyatının həyata keçirilməsi, öz səlahiyyətləri daxilində dini təhsil ilə bağlı məsələlərin tənzimlənməsi, qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlər daxildir.



# VƏTƏNDAŞ QƏBULU

**Göyçay**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov iyunun 5-də Göyçay, Ucar, Kürdəmir və Zərdab rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.

Qəbuldan öncə Ümummilli Lider Heydər Əliyevin Göyçay şəhərinin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, xatirəsi ehtiramla yad olunub.

Qəbul zamanı vətəndaşlar din xadimlərinin attestasiyası, dini icmaların kitablarla təmin edilməsi, maarifləndirmə işinin genişləndirilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

Qəbuldan sonra Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, Milli Məclisin deputatı Sabir Hacıyev Komitənin Göyçay bölgəsi üzrə şöbəsinin yeni inzibati binası və burada əməkdaşlar üçün yaradılan şəraitlə tanış olublar.

**Sabirabad**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyun ayının 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Sabirabad rayonunda vətəndaşları qəbul edib.

Qəbuldan öncə Ümummilli Lider Heydər Əliyevin Sabirabad şəhərinin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, xatirəsi ehtiramla yad olunub.

Qəbul zamanı Saatlı, Sabirabad, İmişli və Beyləqan rayonlarından olan vətəndaşlar dini icmanın dövlət qeydiyyatına alınması, dini təhsil, maarifləndirmə işinin genişləndirilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

Qəbuldan sonra Dövlət Komitəsinin sədri Ramin Məmmədov Sabirabadda bir qrup şəhid ailəsi ilə görüşüb. Görüş zamanı R.Məmmədov şəhid ailələrinin qayğıları ilə yaxından maraqlanıb, qaldırılan məsələlərin həlli ilə bağlı qanunvericilik çərçivəsində tədbirlərin görüləcəyini bildirib.





# Ayasofya məscidinin elektron surəti yaradılıb

Türkiyədə məşhur Ayasofya məscidinin elektron surəti yaradılıb, bu isə onun zəlzələ zamanı hətta dağılsa belə, ümumdünya irsi obyektinin bərpasına imkan verəcək.

Layihə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi nəzdində Fondlar Baş İdarəsi tərəfindən həyata keçirilib.

Mütəxəssislər iki il ərzində məscidin, demək olar ki, hər kvadratsantimetrini skan ediblər, tikintisi hələ eramızın 537-ci ilində tamamlanan obyektin "elektron klonu"nu yaradıblar.

Layihə İstanbulun tarixi rəmzlərindən birinə dair bütün məlumatların qorunub saxlanması və gələcək nəsillərə ötürülməsinə zəmanət verir.

"Biz istəyirik ki, Ayasofya 500 ildən sonra da bugünkü kimi qalsın. Toplanmış məlumatlar sayəsində təbii fəlakətlərdən ciddi ziyanın dəyəcəyi təqdirdə, tikilinin memarlıq görünüşünün bərpası mümkün olacaq", - deyə Fondlar Baş İdarəsinin nümayəndəsi Şengül Koncagül jurnalistlərə bildirib.

# Dövlət Komitəsində görüşlər



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov iyunun 10-da Beynəlxalq Bəhai İcmasının BMT-dəki Baş nümayəndəsi Bani Duqal ilə görüşüb.

Görüşdə Dövlət Komitəsinin sədri xalqımızın multikultural və dini-mənəvi dəyərlərinin qorunması, inkişaf etdirilməsi sahəsində həyata keçirilən dövlət siyasəti barədə məlumat verib. Ramin Məmmədov qeyd edib ki, Prezident cənab İlham Əliyev tərəfindən ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi daim diqqətdə saxlanılır. Bildirib ki, Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafı, dini-mədəni müxtəlifliyin qorunması, eləcə də sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsi sahəsində zəngin təcrübəsi bütün dünyada qəbul olunur.

Beynəlxalq Bəhai İcmasının BMT-dəki Baş nümayəndəsi Bani Duqal Azərbaycanda dini konfessiyaların, o cümlədən bəhai icmalarının üzvlərinin fəaliyyətinə göstərilən davamlı diqqət və qayğıya görə minnətdarlığını ifadə edib. Həmçinin ölkəmizin dinlərarası harmoniyanın inkişafına və möhkəmləndirilməsinə verdiyi önəmi xüsusi vurğulayıb.

Qeyd edək ki, görüşdə COP29-a hazırlıq proseslərinə məsul BMT nümayəndəsi Daniel Perell, Beynəlxalq Bəhai İcmasının BMT nümayəndəliyinin əməkdaşı Şane Tecarati, o cümlədən Azərbaycan Bəhailəri Dini Mərkəzinin nümayəndələri Ramazan Əsgərli və Azər Cəfərov iştirak ediblər.

***

İyunun 19-da isə Ramin Məmmədov ölkəmizdə səfərdə olan Almaniya Federativ Respublikasının Süryani Ortodoks Kilsəsinin rəhbər heyəti ilə görüşüb.

Azərbaycanın nümunəvi dövlət-din münasibətləri modeli, dövlətin din sahəsindəki siyasəti barədə danışan Dövlət Komitəsinin sədri Prezident İlham Əliyevin tolerantlıq ənənələrini daha da inkişaf etdirərək dövlət siyasətinə çevirdiyini, ayrı-ayrı dini konfessiyalara münasibətdə heç bir fərq qoyulmadan dini sahəyə daim diqqət və qayğı göstərdiyini və bu uğurlu siyasət nəticəsində Azərbaycanın zəngin tolerantlıq və multikultural dəyərlərinin qorunduğunu diqqətə çatdırıb. Bildirib ki, Azərbaycanda dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədi ilə mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən dini qurumlara maliyyə vəsaiti ayrılır.

Səmimi görüş üçün minnətdarlığını bildirən Suriya Pravoslav Kilsəsinin Ekumenik Məsələlər üzrə Arxiyepiskopu Mor Julius Hanna Aydın qeyd edib ki, Azərbaycandakı tolerantlıq mühiti, eyni zamanda ölkəmizin dinlər və mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsi, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunması istiqamətində göstərdiyi bütün səylər yüksək qiymətləndirilir.

Qeyd edək ki, görüşdə Almaniyadakı Süryani Ortodoks Mor Yaqub Dasruq



Kilsəsinin Arxidyakonu Abuna Murat Üzel, Fray Universitetinin əməkdaşı Susi Üzel, Süryani icmasının və Süryani kilsənin 12 nəfərlik idarə heyətinin sədri Andreas Çelik iştirak ediblər.

***

Dövlət Komitəsində daha bir görüş iyunun 24-də baş tutub.

Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov ilə görüş zamanı Dövlət Komitəsinin sədri Ramin Məmmədov Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əlaqələrin dinamik inkişaf etdiyini, dini sahədə mövcud münasibətlərin daha da möhkəmlənməsinin əhəmiyyətini vurğulayıb.



Dövlət Komitəsinin sədri qonağa Azərbaycanda çoxəsrlik ənənələrə malik tolerantlıq mühiti, ayrı-ayrı dinlərin nümayəndələri arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq barədə məlumat verib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizin yaşadılması, tarixi-dini abidələrimizin bərpası, tolerant və multikultural dəyərlərin inkişafına göstərdiyi diqqət və qayğıdan bəhs edib.

Səfir Mixail Yevdokimov ölkəmizdə bütün dinlərə qarşı hörmətlə yanaşılmasının təqdirəlayiq olduğunu ifadə edib, dini icmaların fəaliyyəti üçün yaradılan nümunəvi mühitin əhəmiyyətini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər də müzakirə olunub.

# Patriarx Kirill Bakı və Azərbaycan yepiskopuna arxiyerey jezlini təqdim edib

Moskva və bütün Rusiyanın Patriarxı Kirill iyunun 13-də arximandrit Aleksinin (Smirnov) Bakı və Azərbaycan yepiskopu xirotoniyasına (təqdimat mərasiminə) başçılıq edib.

Bu barədə Moskva və bütün Rusiyanın Patriarxının mətbuat xidməti məlumat yayıb.

Liturgiyanın sonunda Rus Pravoslav Kilsəsinin Primatı yepiskop Aleksiyə yepiskop jezlini təqdim edib.

Patriarx yepiskop Aleksiyə vaxtilə Bakı yeparxiyasının himayəsi altında yaradılmış və burada kilsə həyatının inkişafı üçün çox işlər görmüş arxiyepiskop Aleksandrın layiqli davamçısı olmağı, yerli mədəniyyətlə daha yaxından tanış olmağı və mütləq dili və adət-ənənəni öyrənməyi tövsiyə edib.

"Azərbaycan müasir dünyəvi dövlətdir, lakin qədim müsəlman əsaslarına və ənənələrinə malikdir və bu, sizin üzərinizə xüsusi məsuliyyət qoyur. Bütün ömrünü Qafqazda keçirmiş savadlı bir insan kimi İslam mədəniyyətinin xüsusiyyətlərini yaxşı bilməlisiniz. Bu spesifikliyi nəzərə alaraq, siz sistemli şəkildə ölkənin dini icmaları ilə dialoq qurmalısınız", - deyə Patriarx bildirib.

O, həmçinin Qafqaz Müsəlmanları İdarəsinin sədri, patriarxın qeyd etdiyi kimi, "ölkədə yüksək nüfuza malik" və "Rusiya Pravoslav Kilsəsinin çoxdankı dostu olan" Allahşükür Paşazadə ilə ünsiyyətin vacibliyini qeyd edib.

# Azərbaycan İlahiyyat İnstitutunda "Məzun günü" keçirilib






İyun ayının 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) 2023/2024-cü tədris ili üzrə məzun günü keçirilib.

Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Nazirlər Kabineti və digər qurumların nümayəndələri, Milli Məclisin deputatları, eləcə də dini icma sədrlərinin iştirak etdikləri tədbiri giriş sözü ilə açan Aİİ-nin rektoru Aqil Şirinov qeyd edib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci ildə təsis edilən İnstitut din sahəsində yüksəkixtisaslı kadrlar hazırlayır. Dünya dinləri haqqında dərin biliklərə malik, tərəfsiz və bütün konfessiyalara qarşı tolerant yanaşan milli kadrları yetişdirməyi qarşısına məqsəd qoyan Aİİ İslam dünyasında məzhəbüstü təhsil verən nadir təhsil ocaqlarından biridir. 297 tələbənin təhsil aldığı institutda xaricdə yaşayan soydaşlarımızın təhsili üçün də şərait yaradılıb. Rektor Aİİ-nin Türkiyə, Rusiya, Gürcüstan, Özbəkistan, Qazaxıstan, İndoneziya, Malayziya, Pakistan kimi ölkələrin ali təhsil müəssisələri ilə yaxından əməkdaşlıq etdiyini bildirib. Ötən il İnstitutun yanında "Bakı İlahiyyat Kolleci"nin təsis edilməsinin din sahəsində sağlam düşüncəli, dövlətçiliyə bağlı kadrların hazırlanması baxımından önəmini vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov İnstitutun professor-müəllim heyətini və tələbələrini "Məzun günü" münasibətilə təbrik edərək bildirib ki, ixtisasından, təhsilindən, peşəsindən asılı olmayaraq, dövlətimizin güclənməsinə çalışmaq hər bir vətəndaşın ümdə vəzifəsidir. Dövlət Komitəsinin sədri qeyd edib ki, biz Cənubi Qafqazın tarixində yeni bir səhifə açmış böyük bir millətin nümayəndələri, güclü bir dövlətin vətəndaşlarıyıq. Vurğulayıb ki, Ümummilli Liderimizin adını daşıyan Heydər Əliyev Fondunun işğal dövründə məhv edilmiş dini, tarixi abidələrimizin bərpası ilə bağlı başladığı missiya milli-mənəvi dəyərlərimizə, tarixi və mədəni irsimizə son dərəcə möhkəm tellərlə bağlı unikal bir xalq olduğumuzun göstəricisidir. Azərbaycan İlahiyyat İnstitutunun əsas məqsədi də məhz milli-mənəvi dəyərlərə, dövlətçilik ənənələrinə sadiq mütəxəssislər yetişdirməkdir. R.Məmmədov İnstitutun məzunlarının bu məsuliyyətin yükünü çiyinlərində daşımağa qadir peşəkarlar kimi özlərini təsdiq edəcəklərinə əminliyini ifadə edib, onlara uğurlar arzulayıb.

Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli İnstitutun məzunlarını təbrik edərək, onların milli-mənəvi dəyərlərimizin təşviqi istiqamətində xüsusi rol oynayacaqlarına ümidvar olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycanda digər sahələrdə olduğu kimi, dini sahədə də xeyli dəyişikliklər baş verib, əhəmiyyətli addımlar atılıb, böyük uğurlar əldə edilib. Azərbaycanda dövlət-din münasibətlərinin dünyaya nümunə olduğundan bəhs edən F.İbrahimli ali dini təhsilin əhəmiyyətinə toxunub. Qeyd edib ki, din təhsili milli dəyərlərimiz, eləcə də ölkəmizdəki çoxəsrlik multikulturalizm və tolerantlıq ənənələri nəzərə alınmaqla, bu sahədə beynəlxalq təcrübə öyrənilməklə həyata keçirilməlidir.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov və Bakı Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev çıxışlarında milli-mənəvi dəyərlərimizə, dövlətçilik ənənələrimizə bağlı mütəxəssislərin yetişdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Məzunlar adından çıxış edən Zeynəb Kərimli Azərbaycan dövlətinin gənclərə diqqət və qayğısının peşəkar mütəxəssislərin yetişdirilməsində mühüm rol oynadığını bildirib.

Çıxışlardan sonra İnstitutu yüksək göstəricilərlə başa vurmuş məzunların təltif edilməsi mərasimi keçirilib və bədii proqram təqdim olunub.

Məzun günü proqramı çərçivəsində İslam incəsənəti dərnəyi sərgisi nümayiş olunub, Aİİ-nin müəllim və tələbələrdən ibarət özfəaliyyət kollektivinin ifasında musiqi proqramı təqdim edilib, I kurs tələbəsi Qismət Rzayev tərəfindən "Qurani-Kərim" tilavət edilib.

Qeyd edək ki, 2023/2024-cü tədris ilində Azərbaycan İlahiyyat İnstitutunda 52 (25 qız, 27 oğlan) tələbə məzun olur. Bununla da indiyədək institutdan məzun olanların sayı 173 nəfərə çatıb.

# İslam dininə aid ibadət yerlərində vakant vəzifələrin tutulması üçün növbəti müsahibə mərhələsi başlayıb



İyunun 27-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün növbəti müsahibə mərhələsi başlayıb.

İyul ayının 1-də yekunlaşması nəzərdə tutulan müsahibə prosesində qadın dini ayinlərin icraçısı vəzifəsi üçün 1 vakant yer üzrə müraciət edən 59 namizədin seçimi aparılacaq. Seçimlər DQİDK-nın ilahiyyatçı mütəxəssislərdən təşkil etdiyi Müsahibə komissiyası tərəfindən Azərbaycan İlahiyyat İnstitutunda aparılır. Müsahibənin nəticələri keçirildiyi gün Komitənin rəsmi internet saytında (scara.gov.az) elan edilir.

Uğur qazanmış namizəd təsdiq edilmiş qaydalara əsasən müsahibə bitdikdən sonra 30 iş günü müddətində Komitə sədrinin əmri ilə İslam dininə aid ibadət yerinə və ya ziyarətgaha qadın dini ayinlərin icraçısı vəzifəsinə təyin olunacaq.

Müsahibənin 02-06 iyul tarixlərində keçiriləcək mərhələsində isə 6 vakansiya (imam və imam müavini) üzrə 126 namizəd arasında seçim aparılacaq.

Qeyd edək ki, hazırda seçimləri aparılan vakant vəzifələrə namizədlərin sənədlərinin qəbulu 13 dekabr-13 yanvar tarixlərində həyata keçirilib.

# Zəngilanda bayram namazı qılınıb



İyunun 16-da Zəngəzurun giriş qapısı olan Zəngilanda 31 ildən sonra ilk dəfə bayram namazı qılınıb. Zəngilanda inşa edilmiş yeni məsciddə qılınan ilk bayram namazı Azərbaycan xalqının öz tarixinə, milli-mənəvi dəyərlərinə sədaqətinin, Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında əldə etdiyimiz möhtəşəm zəfərin əzəmətli nümunəsi kimi tarixin yaddaşına yazılıb.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva 2020-ci il dekabrın 8-də Heydər Əliyev Fondunun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etmişdi. 30 il düşmən tapdağında qalmış ərazilərimizdə bərpa edilən və yeni tikilən məscidlərdə həyata keçirilən dini ayinlər həm də torpaqlarımızın azad edilməsi uğrunda həyatını fəda etmiş minlərlə Vətən övladının xatirəsinə ehtiramın ifadəsidir.

# Luiziana ştatındakı bütün məktəblərdə "On Əmr" yerləşdiriləcək

ABŞ-nin Luiziana ştatının qubernatoru, respublikaçı Cef Landri bütün dövlət məktəbləri və dövlət tərəfindən maliyyələşdirilən özəl təhsil müəssisələrinin sinif otaqlarında "On Əmr"i əks etdirən plakatların asılmasını tələb edən qanun layihəsini imzalayıb. "TASS" bu barədə qubernatorun rəsmi saytına istinadən xəbər yayıb.

Qanun ştatda təhsil sistemindəki islahatlara yönəlmiş qanun layihələri paketinə daxil idi. "Bu gün biz təhsil sistemimizdə köklü islahatlar aparmaq və sağlam düşüncəni siniflərə qaytarmaq vədimizə əməl etdik. Güclü təhsil güclü iqtisadiyyat və güclü dövlət yaradır", - qubernator imzalanma mərasimində deyib. "Əgər qanunun aliliyinə hörmət etmək istəyirsinizsə, Musanın verdiyi ilkin qanundan başlamalısınız... O, öz əmrlərini Allahdan alıb", – CNN siyasətçinin sözlərindən sitat gətirib.

Qanun layihəsi Amerika Vətəndaş Azadlıqları Birliyi kimi bir sıra insan haqları təşkilatlarının tənqidinə səbəb olub. Onların fikrincə, tətbiq edilən təcrübə konstitusiyaya zidd olaraq şagirdlərin dinə məcbur edilməsinə gətirib çıxaracaq. Qanun layihəsinin əleyhdarları məhkəmədə ona etiraz etməyi planlaşdırır.

Öz növbəsində, yeni qaydaların tərəfdarları 2022-ci ildə Amerika məktəblərindən birində ibadət edən müəllimin işdən çıxarılmasını qanunsuz elan edən ABŞ Ali Məhkəməsinin qərarına etiraz edirlər. CNN-in istinad etdiyi hüquqşünasların sözlərinə görə, bu presedent dövlət qurumlarının rəhbərliyinə dindarların onların ərazilərində öz inanclarını açıq şəkildə ifadə etmələrinə icazə verməsinə imkan verir. "On Əmr" plakatlarının hökumət mülkiyyətində olan məkanlarda yerləşdirilməsi ilə bağlı müzakirələr və məhkəmə çəkişmələri Birləşmiş Ştatlarda onilliklərdir davam edir. Landrinin imzaladığı qanun mühafizəkarlarla vətəndaş hüquqları müdafiəçiləri arasında bu qarşıdurmada yeni presedent yaradır.

# Fransanın fəxr etdiyi dünyəvilik prinsipləri miqrantların təhsilində və inteqrasiyasında gərginlik yaradır



Fransa dövləti konstitusiyasında öz əksini tapmış dünyəvilik prinsipləri ilə fəxr edir, lakin bu prinsiplər tədris, din və yeni gələnlərin inteqrasiyası məsələlərində gərginlik yaradır. Xüsusilə, Qərbi Avropada ən böyük yerli müsəlman icmasının artan müqaviməti müşahidə olunur. Bu barədə "religion-news" yazıb.

Fransa Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarında fransalı qadın idmançıların hicab geyinməsinə qadağa qoyması ilə növbəti dəfə beynəlxalq ictimaiyyəti silkələyib. Bu, onun konstitusiyada təsbit olunmuş özünəməxsus dünyəvilik prinsipinin növbəti təzahürüdür. Lakin onun praktikada tətbiqi hərdən ölkə daxilində ixtilaflara və qarşıdurmalara səbəb olur.

Dünyəvilik prinsipi Fransanın dinin ictimai həyatdakı yeri və roluna, o cümlədən müsəlmanların inteqrasiyası probleminə (aralarında miqrantlar və onların nəsilləri üstünlük təşkil edir) yanaşmalarının sərtliyini müəyyən edir və problem getdikcə daha da kəskinləşir. Ölkənin müsəlman icması isə çoxdan Qərbi Avropanın ən böyük icmasına çevrilib. Bu prinsip məktəblilərin geyimində, davranışında, şəxsi atributlarında və s. inanclarını təzahür etdirməsinə icazə verməməklə "milli birliyin möhkəmləndirilməsi"nə dair ciddi normalarına malik olan dövlət məktəblərində bir çox mübahisələrə və münaqişələrə səbəb olur. Məktəblərdə xüsusən də hicaba qarşı davamlı müharibə gedir.

Müsəlman icmasının üzvü Majda Ould İbbat qızlarını bu cür təqiblərdən qorumaq üçün Fransanın ikinci böyük şəhəri Marseli tərk etməyi ciddi şəkildə düşünürdü. Lakin o, çıxış yolunu qızları özəl "İbn Xaldun" müsəlman məktəbinə köçürməkdə tapıb. Burada müsəlman uşaqları sərbəst şəkildə İslam dininə etiqad edə və dərslərindən geri qalmaya bilərlər. Majda deyir: "Mənim üçün öz inancıma sərbəst şəkildə etiqad etmək imkanı şəxsi hüquq, şərəf və ləyaqət məsələsidir. Biz icmamızda uşaqlarımızın mənəvi əsaslarımıza və dəyərlərimizə uyğun mükəmməl təhsil almasını istəyirik".

Marjanın qızı Minanə Fransadakı bir çox gənc müsəlman qadın kimi özünü dünyəvi fransız mədəniyyəti ilə inancının tələbləri arasında parçalanmış vəziyyətdə hiss edir. O, tez-tez çoxmədəniyyətli Marsel küçələrində müsəlmanların bura aid olmadığını bildirən kəskin sözlər eşidir. Minanə deyir: "Mənə hərdən maraqlı gəlir ki, Fransada İslam, ümumiyyətlə, qəbul olunurmu?" O, bir çox digər müsəlmanlar kimi, kollektiv travma yaşayır və qərəzli baxışları hiss edir.

Rəsmilər və təhsil sahəsinin işçiləri dünyəviliyi fransız millətinin ayrılmaz xüsusiyyəti və özünüdərkinin əsası hesab edərək ona böyük önəm verirlər. Həmçinin onlar hesab edirlər ki, dünyəvilik prinsipi vətəndaşları dini ayinlərə əməl edib-etməməsinə görə dərəcələrə və təbəqələrə bölməyə, dindar olmayanların gizli təzyiq və qınaqlara məruz qalmasına imkan vermir. Halbuki fransız müsəlmanlar üçün dünyəvilik prinsipi məhz ayrı-seçkilik, təzyiq və qəbul edilməmək deməkdir, çünki onlar inanclarına bağlılıqlarına və onun xarici təzahürlərinə görə ittiham olunur, təqiblərə məruz qalır və məzlum dini azlığa çevrilirlər. Artan gərginlik fonunda çoxları təzyiqlərin artması və inancla bağlı yeni problemlərin yaranması ilə cəmiyyətdə parçalanmaların sürətləndiyini qeyd edirlər.

# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı – 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrərəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*



### Babayev Allahverdi Ələt oğlu

Şəhid Babayev Allahverdi Ələt oğlu 1989-cü il martın 24-də Mingəçevir şəhərində anadan olub. O, 1996-cı ildə Nəriman Nərimanov adına Mingəçevir şəhər 1 saylı tam orta məktəbin 1-ci sinfinə gedib. 2007-ci ildə orta məktəbi bitirən Allahverdi Bakı İslam Universitetinin Mingəçevir filialının "Şəriət" fakültəsinə qəbul olub. Tələbəlik illərində ictimai təşkilatlarda fəallığı ilə seçilib. Təhsilini başa vurduqdan sonra Mingəçevir şəhər Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində sərhədçi əsgər kimi xidmət edib. Allahverdi "Vətən sərhəddən başlayır" deyimini dildə şüar edərək sərhədlərimizin keşiyində ayıq-sayıq dayanıb, müddətli hərbi xidmətini uğurla başa vurub.

Atası onunla bağlı xatirələrini bölüşərkən deyir: "Ailəm dini dəyərlərə çox bağlıdır. Bu mənada bizim də təsirimizlə Allahverdi də dini təhsil almışdı. Lakin o, İslam Universitetinin məzunu olsa da ixtisası üzrə çalışmaqdan imtina etdi, hətta mənim israrıma da məhəl qoymadı. Bir gün mənə dedi ki, "ata, bağışla, bu ixtisas mənlik deyil".

Allahverdi Babayev yeniyetmə və gənclik dövründə ictimai fəallığı ilə seçilib. Gənclər təşkilatlarının fəallarından və fərqli müasir xidmət könüllülərindən olub. Bütün bu çoxşaxəli fəaliyyətinə baxmayaraq o, hər zaman hərb sahəsinə maraq göstərib, hərbçi olmaq istəyib. Buna görə də 2014-cü ildə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Mingəçevir şəhərində yerləşən "N" saylı hərbi hissənin döyüş maşınları heyətində tuşlayıcı-operator vəzifəsinə təyinat alıb. Nümunəvi xidmətinə, eləcə də hərbi bilik və bacarıqlarına görə hər zaman fərqlənən qəhrəmanımız dəfələrlə qulluq etdiyi hərbi hissə komandanlığı tərəfindən mükafatlara layiq görülüb.

2016-cı il aprel döyüşləri zamanı Talış kəndi uğrunda gedən döyüşlərin iştirakçısı olan Allahverdi sağ bud nahiyəsindən qəlpə yarası alaraq hospitala yerləşdirilib. Əməliyyat olunub, səhhəti düzələndən sonra yenidən ordu sıralarına qayıdıb.

Qısa müddət ərzində böyük təcrübə qazanan Allahverdi hərbi təlimlərdə, eləcə də "Ən yaxşı tank və zirehli döyüş maşını heyəti" adı uğrunda yarışda yüksək nəticələr göstərib.

2020-ci ildə sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlar törədərək cəbhəboyu zonada yerləşən mövqelərimizi və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmasından sonra Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlayıb.

Allahverdinin xidmət etdiyi bölük Talış kəndi istiqamətindən döyüşlərə qatılıb. O, tuşlayıcı-operatoru olduğu Piyadanın Döyüş Maşını (PDM-3) ilə düşmənin bir neçə texnikasını, postlarını və canlı qüvvəsini məhv edib. Qəhrəmanımız təlimlərdə olduğu kimi döyüş zamanı da sərrast atıcılığı ilə fərqlənib. O, mühasirəyə düşən döyüş yoldaşlarını xilas etməyə gedərkən "PDM-3" düşmən tərəfindən vurulur. Maşın vurulsa da, bir neçə dəfə düşmən mövqelərinə atəş açan qəhrəmanımız kürək nahiyəsindən aldığı qəlpə yaralarına baxmayaraq, maşını tərk etdikdən sonra erməni səngərinə girərək döyüşə davam edib. Döyüş yoldaşlarına kömək edən zaman düşmənin atəşi nəticəsində qəhrəmancasına şəhid olub. Qəhrəmanımızın nəşi həmin gün döyüş bölgəsindən çıxarılıb. O, sentyabrın 28-də Mingəçevir Şəhidlər Xiyabanında dəfn edilib.

İştirak etdiyi tədbirlərdə və üzvi olduğu təşkilatlarda fəallığı ilə seçilən Allahverdi Babayev Amerika Birləşmiş Ştatlarının (ABŞ) ölkəmizdəki səfirliyinin əməkdaşları ilə də yaxşı əlaqələrə malik olub. Qəhrəmanımızı yaxından tanıyan ABŞ-nin ölkəmizdəki keçmiş səfiri Metyu Brayza Allahverdinin şəhid düşməsi xəbərini alan kimi sosial şəbəkədə onun haqqında xoş xatirələrini və kədərlərini paylaşır. Daha sonra isə şəhid qəhrəmanın ailəsi ilə əlaqə yaradaraq onlara şəxsən başsağlığı verir.

Şəhidimiz subay idi, ailədə iki qardaş olublar.

Qəhrəmanlığı və cəsurluğu ilə seçilən kiçik çavuş Babayev Allahverdi Ələt oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.



### Balabəyov Pərviz Tofiq oğlu

Şəhid Balabəyov Pərviz Tofiq oğlu 1987-ci il iyulun 14-də Hacıqabul şəhərində dünyaya göz açıb. O, 1993-cü ildə Fariz Cəbrayılov adına Hacıqabul şəhər 2 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olub, 2004-cü ildə həmin məktəbin 11-ci sinfini bitirib. Pərviz 2005-ci ilin iyulunda Hacıqabul rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayan qəhrəmanımız düşmənlə üzbəüz postlarda ayıq-sayıq döyüş növbətçiliyi aparıb. 2007-ci ilin yanvar ayında hərbi xidmətini uğurla başa vurub. Qəhrəmanımızın yaxınlarının sözlərinə görə, onun yaxşı əl qabiliyyəti olduğu üçün 2007-2011-ci illərdə qaynaqçı işləyib. 2011-ci ildən 2015-ci ilə kimi su xətlərinin çəkilməsində baş usta kimi çalışıb. Lakin ürəyi hər zaman vətən, torpaq sevgisi ilə döyünən Pərviz könüllü olaraq müddətdən artıq hərbi xidmət etmək qərarına gəlir. 2015-ci ildə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə "PDM-3" tuşlayıcı-operator vəzifəsində xidmətə başlayıb.

2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı olan Pərvizə 2020-ci il sentyabr ayının 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində 1 gün iştirak etmək qismət olub. Belə ki, o, döyüşlərin ilk günü Füzuli rayonunda düşmənin dörd zirehli texnikasını, onlarla canlı qüvvəsini məhv etdikdən sonra şəhadətə ucalıb. Şəhidin nəşi doğulub, boya-başa çatdığı Hacıqabul rayonuna aparılaraq, orada yerləşən Şəhidlər Xiyabanında böyük izdihamla torpağa tapşırılıb.

Şəhidimiz subay idi, onun bir qardaş və bir bacısı var.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək adını şanlı vətən tariximizə yazan əsgər Balabəyov Pərviz Tofiq oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.



### Bayramov Xəqani Məmməd oğlu

Şəhid Bayramov Xəqani Məmməd oğlu 1990-cı il noyabrın 17-si Beyləqan rayonunun Təzəkənd kəndində dünyaya gəlib. 1997-ci ildə Əliheydər Məmmədov adına Təzəkənd kənd tam orta məktəbin 1-ci sinfinə gedib, 2008-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. Xəqani 2009-cu ilin yanvarında Beyləqan rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. O, Silahlı Qüvvələrin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə mühəndis-istehkam bölüyündə xidmət edib.

Xəqani əsgəri xidmətini başa vurduqdan sonra ailəsinin yanına geri dönüb, kəndlərində təsərrüfatla məşğul olub. O, 2013-cü ildə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirib Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissənin kəşfiyyat taborunda mühəndis-istehkam manqa komandiri vəzifəsinə təyinat alıb. Üç illik xidmətinin ardından sənədlərini "Gizir hazırlığı" kursuna verib. Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları uğurla başa vuraraq Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətinə davam edib.

Şəhidimiz 2016-cı ildə Aprel döyüşləri zamanı Lələtəpənin azad olunmasında yaxından iştirak edib, göstərdiyi xidmətlərə görə fəxri fərmanla təltif olunub. Vətən müharibəsindən öncə Ağcabədidə yaşayan ailəsini Beyləqana gətirən Xəqani onları valideynlərinə əmanət etdikdən sonra 2020-ci il oktyabr ayının 4-ü ön cəbhəyə yollanıb.

Xəqani Füzuli, Cəbrayıl, Zəngilan və Hadrut uğrunda gedən döyüşlərdə iştirak edib, öhdəsinə düşən döyüş tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirib, şəhid və yaralıların təxliyəsində əlindən gələni əsirgəməyib. Oktyabrın 22-də Qubadlı şəhərinin girişində qızğın döyüşlər zamanı şəhidlik zirvəsinə ucalan qəhrəmanımızın şəhadətindən ailəsi 2 gün sonra - oktyabrın 24-də xəbər tutub. Xəqani 2020-ci il oktyabrın 24-də anadan olduğu Təzəkənddə torpağa tapşırılıb.

Şəhidimiz ailəli idi, Bahar adlı qızı və Rəsul adlı oğlu Vətənə əmanət qalıb.

Cəsarəti və igidliyi ilə adını tariximizin şanlı səhifəsinə yazan gizir Bayramov Xəqani Məmməd oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Hazırladı: **Ramil Hikmət**

# Azərbaycan İlahiyyat İnstitutunun müəllimi beynəlxalq konfransda iştirak edib

Latviya Respublikasının paytaxtı Riqa şəhərində "Azərbaycan elm və poeziyanın kəsişməsində" mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbir Azərbaycan Respublikasının Latviyadakı Səfirliyinin dəstəyi və Latviya Universitetinin təşkilatçılığı ilə baş tutub.

Latviya Universitetində təşkil edilən beynəlxalq konfransda Azərbaycan İlahiyyat İnstitutu (AİI) Dinşünaslıq kafedrasının müəllimi, f.f.d. Aliyə Mürsəlova "Azərbaycanın mədəni irsinin və dini müxtəlifliyinin elmə verdiyi töhfələr" (Contributions of Azerbaijan's cultural heritage and religious diversity to science) mövzusunda məruzə ilə çıxış edib.

Məruzəçi Azərbaycan torpaqlarında əsrlərboyu yaşayan xalqların tarixi-mədəni irsi haqqında məlumat verib. A.Mürsəlova azərbaycanlı alimlərin, o cümlədən ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələrinin elm sahələrinə verdiyi töhfələr barədə söhbət açıb, fərqli etnik qrup və din nümayəndələrinin dünəni və bu günü barədə tarixi faktlarla Azərbaycanda multikulturalizm modelinə dair nümunələr göstərib.




Qeyd edək ki, tədbirdə Avropa ilə Asiya arasında körpü rolunu oynayan və müxtəlif sivilizasiyaların kəsişmə nöqtəsində yerləşən Azərbaycanın mədəni irsi və dini müxtəlifliyinə daha geniş nöqteyi-nəzərdən, həmçinin müxtəlif elm və incəsənət fənləri vasitəsilə baxılıb. Tədbir çərçivəsində, eləcə də dahi Azərbaycan mütəfəkkirləri və şairlərinin dünya mədəni irsinə verdiyi töhfələr haqqında müzakirələr aparılıb.

# Məhərrəmlik mərasimi ilə bağlı tövsiyələr

Məhərrəm hicri-qəməri təqvimin ilk ayı, İslam dinində dörd haram aydan biridir. Müsəlman dünyasında məhərrəm ayı yalnız yeni ilin başlanğıcı deyil, həmçinin İslam tarixində ən faciəli hadisələrdən biri olan Kərbəla şəhidlərinin növbəti ildönümünün keçirilməsi kimi xarakterizə edilir. Miladi təqvimlə 680-ci ilin məhərrəm ayında Məhəmməd peyğəmbərin nəvəsi İmam Hüseynin və tərəfdarlarının amansızca qətlə yetirildiyi Kərbəla faciəsi İslam tarixinə ən acı və kədərli hadisə kimi düşmüşdür. Hər il məhərrəm ayında facia qurbanlarının nəsillərin yaddaşında yaşadılması və İmam Hüseynin həyat və mübarizəsinin yad olunması məqsədilə mərasimlər təşkil olunur. Bu mərasimlərin məqsədi bədbinlik əhval-ruhiyyəsi təlqin etmək deyil, İmam Hüseynin şəhadətini yad etmək, onun cəsarət və ədalət uğurundakı mübarizəsini xatırlamaq, prinsip və dəyərlərini yaşatmaq, eyni zamanda vətənə bağlılıq hissini təcəssüm etdirməkdir. Belə ki, İslam dinində "şəhidlik məktəbi" və ədalət uğrunda mübarizə İmam Hüseynin adı ilə bağlıdır.

Məhərrəm ayının ilk on günündə məscidlərdə təşkil edilən kütləvi mərasimlərdə Quran oxunur, mərsiyələr deyilir, ehsanlar verilir və s. ayinlər icra olunur. Ancaq təəssüf ki, bəzən Məhərrəmlik, xüsusilə Aşura mərasimləri zamanı İslam dininin mahiyyətinə uyğun olmayan zəncir vurmaq, qan çıxarmaq, küçə yürüşləri keçirmək kimi mənfi hallar müşahidə edilir. Halbuki Məhərrəmlik mərasimləri İslam dininin mahiyyətinə uyğun təşkil edilməli, xurafat elementlərindən qaçınılmalı, ictimai asayişi pozacaq küçə yürüşləri keçirmək kimi hallara yol verilməməlidir. Mərasimlər məscidlərin imamları tərəfindən Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının məhərrəm ayının başlanması ilə əlaqədar müraciətinə uyğun, qanun çərçivəsində, müraciətdə irəli sürülən tövsiyələrə riayət olunmaqla icra edilməlidir. Özünü döyməklə bədənə xəsarət yetirmək, qan çıxarmaq kimi əməllər İslam dininin mahiyyətinə ziddir və bunlar sonradan meydana çıxan, uydurulmuş hərəkətlərdir, mövhumatdan başqa bir şey deyil.

Azərbaycanda istər müsəlman, istər qeyri-müsəlman olsun hər kəsə öz inancından irəli gələn ayinlərin, dini mərasimlərin azad keçirilməsi üçün lazımi şərait yaradılıb. Lakin dini mərasimlər zamanı bəzi prinsiplərə əməl etmək lazımdır. İlk növbədə, dini mərasimlər ictimai asayişi pozmamalıdır. Belə ki, "Dini etiqad azadlığı haqqında" Qanunun tələblərinə əsasən, kütləvi dini ibadət, ayin və mərasimlər dini ibadət yerlərində və ziyarətgahlarda keçirilir, dini ibadət yerlərindən və ziyarətgahlardan kənarda yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə təşkil oluna bilər. Bu, təhlükəsizliyin və asayişin təmin edilməsi, həmçinin kütləvi dini ibadət, ayin və mərasimlərin qayda-qanunlara uyğun təşkil olunması baxımından önəmlidir. Üstəlik, bir çox ölkələrdə, o cümlədən Azərbaycanda kütləvi dini tədbirlər qanunla tənzimlənir. Bu, münaqişələrin qarşısını almağa kömək edən və müxtəlif dini konfessiyaların nümayəndələrinin harmonik birgəyaşayışını təmin edən belə tədbirlərin keçirilmə yerləri və şərtləri ilə bağlı qaydaları əhatə edir.

Dini mərasimlərin adət-ənənələrə uyğun keçirilməsi, yad dini təsirlərin müdaxiləsinə yolverilməməsi də vacib məqamlardan biridir. Bunlardan başqa, dini mərasimlərdə siyasi çağırışların səsləndirilməməsini, müxtəlif dini atributların yalnız məscidlərin daxilində nümayiş olunmasını, ayinlərin icrası zamanı xurafata, ifratçılığa yol verilməməsini də bu prinsiplərə aid etmək olar.

Məhərrəmliyin mahiyyəti bədbinlik əhval-ruhiyyəsi yaymaq deyil, fədakarlığı, dəyanətə çağırışı, vətənpərvərlik ruhunu, əhdə vəfanı təcəssüm etdirməkdir. Kərbəla faciəsi, bir növ, sülhün, əmin-amanlığın tərənnümüdür. Çünki İslam tarixində baş vermiş misli görünməmiş bu hadisə bizə qan tökməyin, haqsızlığa məruz qalmağın faciəsini göstərir, eyni zamanda, doğruluğun, dürüstlüyün, birliyin, həmrəyliyin əhəmiyyətini öyrədir. Biz xalq olaraq zülmə məruz qalmağın acı nəticələrini Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması ilə yaşadıq. Lakin bütün çətinliklərə baxmayaraq, 44 günlük Vətən müharibəsində xalqımızın sarsılmaz birliyinin, həmrəyliyinin, fədakarlığının, dəyanətinin şahidi olduq. Məhz xalqımızın cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi sıx birləşməsi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunmasına zəmanət verdi. Bu müharibə Azərbaycanın vətənpərvər övladlarının nə qədər cəsur və fədakar olduğunu bir daha təsdiqlədi. Bu baxımdan məhərrəm ayı Vətənimizin bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin anılması üçün müqəddəs məqamdır.

Məhərrəmliyin onuncu günü – Aşura günü verilən ehsan süfrələri, artıq ənənəyə çevrilmiş qanvermə aksiyaları da insanlar arasında mehribanlığın, həmrəyliyin aşılanmasını, yardımlaşmanın yayılmasını təcəssüm etdirir.

İslami dəyərlərin olduğu kimi, sağlam mənbələr əsasında yaşadılması mənəviyyatın saflaşmasına, milli kimliyin qorunmasına, vətənə-torpağa bağlılığa, dini-mənəvi dəyərlərimizin öyrənilməsinə xidmət edir. Əgər doğru olanı həyata keçirsək və bunu digərlərinə təbliğ etsək, onda mənfi halların heç biri olmaz.

Bütün sadalananları nəzərə alaraq, Kərbəla hadisəsinin təhriflərdən uzaq, sağlam düşüncə əsasında və düzgün dərk edilməsi, Məhərrəmlik dövründə məscidlərdə verilən xütbələrdə onun Vətənə, milli-mənəvi dəyərlərə bağlılığın, sevginin nümunəsi kimi təqdim olunaraq aşılanması və Vətənimiz uğrunda şəhid olanların əziz xatirəsinin yad edilməsi vacibdir.

Ümid edirik ki, bu il də ölkəmizdə təşkil olunan Məhərrəmlik, xüsusilə Aşura mərasimləri İslam dinin mahiyyətinə və xalqımızın yüksək mədəniyyətinə uyğun, eləcə də İmam Hüseynin adına layiqli şəkildə keçiriləcəkdir.

# Abdullah ibn Avn

VIII əsrin məşhur hədis alimlərindən Abdullah ibn Avn Bəsrə şəhərində dünyaya gəlmişdir. Doğum tarixi bəlli deyildir, lakin 768-ci ildə vəfat etdiyi məlumdur.



Elm öyrənmək məqsədilə Məkkə, Mədinə və Kufəyə, eləcə də həmin dövrün elm mərkəzləri sayılan digər şəhərlərə getmiş, dövrünün böyük alimlərindən olan Səmamə ibn Abdulla ibn Ənəs, Məhəmməd ibn Sirin, İbrahim ən-Nəhai, Ziyad ibn Cubeyr, Həsən Bəsri kimi tanınmış simalardan hədis rəvayət etmişdir.

Abdullah ibn Avn təkcə hədis elmi sahəsindəki xidmətləri, dini bilikləri ilə deyil, təvazökarlığı, ibadətlərə davamlılığı, gözütoxluğu, səxavəti ilə də seçilmişdir. Onun yüksək əxlaqı haqqında müasirləri deyirdi: "Biz ibn Sirinin vərasına, haram və şübhələrdən çəkinməsinə heyran idik, lakin Abdullah ibn Avn onu bizə unutdurdu. O bu sahədə çox yüksək mərtəbədə dururdu".

"Vəra" sözü yüksək əxlaqi keyfiyyətlərə malik şəxslər barədə işlədilir. İmam Rəbbani bu sözün ehtiva etdiyi mənaları belə açır: qeybət etməmək, özündən narazı, naməhrəmə baxmamaq, doğru danışmaq, Allah-Təalanın verdiyi nemətləri düşünmək, malını halal yerlərə xərcləyib, haramlardan uzaq durmaq, vəzifəni şəxsi məqsədlər üçün deyil, xalqa xidmət vasitəsi saymaq, namazları vaxtında qılmaq... ".

Abdullah ibn Avn ömrünün xeyli hissəsini pedaqoji fəaliyyətə həsr etmiş, çox sayda tələbə yetişdirmişdir. O, adətən sübh namazlarını tələbələri ilə birlikdə qılar, sonra heç kimlə danışmadan üzü qibləyə oturub Allahı zikr edərmiş. Bu hal Günəş doğanadək davam edər, sonra o, dərsə başlayarmış.

O, lazımsız boş söhbətlərdən qaçmış, camaat üçün fəzilətli mövzuların izahını vermişdir. Təmiz və zövqlü geyinər, bəzən evdə oturub, vaxtını əqli düşüncələrə sərf edər, xeyirxah işlərini aşkar etməzmiş. Valideynləri ilə çox gözəl davranmasına baxmayaraq, onlarla bir qabdan yemək yeməzmiş, bu onu tanıyanları çox təəccübləndirdiyindən bunun səbəbini soruşanda demişdir: "Qorxuram qabdakı hansısa loğma onların xoşuna gələr, mən də bilmədən onu götürüb yeyərəm". Bir dəfə isə anasının çağırışına sərt cavab verdiyindən bərk qüssələnmiş, buna kəffarə olaraq iki qul azad etmişdir.

Müsəlmanları evində saxlayar, qarşılığında pul almazdı. Onunla uzun müddət – 24 il bərabər qalmış İbn Musab, onda xəta görmədiyin söyləmişdir. O, başqalarından üstün xüsusiyyətləri tərki-dünyalığına görə deyil, sözlərinə, dilinə sahibliyi ilə qazanmışdır.

Abdullah İbn Avn vəsiyyətində ardıcıllarına Qurani-Kərimi çox oxumağı, ibadətlərdə camaatla bir yerdə olmağı və pis işlərin qarşısını almağı tövsiyə etmişdir.

O, tələbələrini insanlara hörmət, tolerant ruhda tərbiyə etmişdir. Bir dəfə onlardan birinin "Ağıllı bir şəxsin xətasını görsək, nə edək?" – sualına belə cavab vermişdi: "Ağıllı kimsəni etdiyi xətaya görə danlamaq yaraşmaz. Hər zaman belədir: kim başqasının xətrinə dəyərsə, özü daha şiddətli danlaq eşidər".

**"Cəmiyyət və Din"**

# Stounhenc - müəmmalı daşlar

İngiltərənin cənub-qərbindəki Uiltşir qraflığının Solsberi yaylasında yerləşən Stounhenc meqalitik kompleksi çoxsaylı tədqiqatçıların marağını cəlb etməkdədir. Onun yaşı təxmini müəyyənləşdirilsə də, kimin tərəfindən və hansı məqsədlə yaradıldığı indiyədək aydın izah olunmamışdır.



Abidə kompleksinin başa çatdırılması uzun müddət davam etmişdir. İlk mərhələdə ucaldılmış tikililər çox primitiv formalı olmuşdur. Bunlardan ən qədimi e.ə. 3100-cü ildə inşa edilmiş diametri 115 metrə çatan xəndək ətrafındakı iki torpaq bənddən ibarətdir. Xəndəkdə aparılan araşdırmalar zamanı çoxsaylı öküz və maral buynuzları tapılmışdır. Güman ki, onlardan hansısa mərasim zamanı istifadə edilmişdir. Kompleksin daxilində dairə formasında düzülmüş 56 oyuq var. Obri adlandırılan bu oyuqların funksiyası haqqında yazan bəzi tədqiqatçıların fikrincə, onların vasitəsilə Ay tutulması öyrənilirmiş.

Təxminən e.ə. 2900-2500-cü illərdə kompleksin ikinci hissəsi inşa edilmişdir. Bu zaman yerdə müəyyən taxta qurğuları bərkidən oyuqlar açılmışdır. Həmin oyuqlar kompleksin şimal və cənub girişlərində iki cərgə düzülmüşdür. Obri oyuqları da o vaxtlar yandırılmış cəsəd külləri ilə doldurulmuşdu.

E. ə. 2500-cü ildə taxta tikililər daşla əvəzlənmişdi. İnşaatçılar əvvəlcə üzü şimal-şərqə olan aypara şəkilli iki oyuq cərgəsi açmışlar. Bu ərazidən 385 kilometr aralıda yerləşən Uelsin Presli bölgəsindən "mavi daşlar" adlandırılan, hər birinin uzunluğu 2 metr, eni 1,5 metr və qalınlığı 80 sm olan, çəkisi 4-5 ton arasında dəyişən səksənədək sal daş buraya daşınmışdı. Kompleksin mərkəzində 6 ton ağırlığında (indi "mehrab" adı verilən) monolit daş qoyulmuşdu; bu daş yay gündönümü zamanı çıxan Günəşə baxır. Mülahizələrə görə, tikinti bu mərhələdə yarımçıq qalmışdır. Son mərhələdə yerləşdirilmiş tək dayanan üç mavi daşdan ikisi dövrümüzədək gəlib-çatmışdır. Onlardan biri "Sonuncu", digəri isə "Eşafot"dur. Kompleksə daxil şimal və cənub bəndlərinin iç tərəflərində kiçik kurqanlar yaradılmış, üzərinə mavi daş qoyulmuşdu.

E.ə. III minilliyin sonlarında Stounhencdə ən böyük inşaat prosesi aparılmış, 40 kilometr məsafədən 25 ton ağırlığı olan "sarsen" adlı 30 daş gətirilmişdi. Bu daşları 30 metrlik məsafədə yerləşdirmiş və onların üzərinə nisbətən daha yüngül daş qoyulmuşdur. Beləliklə, П şəkilli konstruksiyalar meydana çıxmışdı. Tədqiqatçıların fikrincə, burada da iş tamamlanmamışdı, çünki dairənin tam qapanması üçün 74 daş lazım idi. Sonrakı mərhələlərdə mavi daşların hamısını yenidən kompleksə daxil etmiş və onları trilitonların daxili dairəsinə qoymuşlar.

Abidə çox uzun müddətdə, mərhələlərlə inşa edilmişdir. Həm də o dövrdə yardımçı inşaat texnikası olmadığından ibtidai insanlar bu cür böyük daşları uzaq məsafədən daşıyaraq gətirmişdilər. Bəs onları bu qədər çətin və əziyyətli işə sövq edən nə idi?

Stounhenc kompleksinin hansı məqsədlə tikildiyi barədə bir neçə nəzəriyyə var. Bəzi fikirlərə görə, qədim britaniyalıların yaratdığı bu abidə nəhəng astronomik saatdır və ondan vaxtı öyrənmək üçün istifadə edilmişdir. Bir qrup tədqiqatçı isə buranın qədim qurbangah yeri olduğunu və insanların qurban verildiyini iddia edirlər. Lakin ərazidəki son arxeoloji qazıntılardan birinə rəhbərlik etmiş professor Tim Darvillin fikrincə, mavi daşlar qədim dövrlərdə müalicəvi xüsusiyyətlərinə görə məşhur idi. Məhz bu səbəbdən həmin daşlar Solsberiyə gətirilmiş, insanların müalicəsi üçün istifadə olunmuşdur. Lakin daha çox dəstəklənən mülahizə belədir ki, qədim insanlar kompleksdən rəsədxana kimi istifadə etmişlər. Burada xidmət edən şəxslər (alim və ya kahinlər) onun vasitəsi ilə əkinçilik üçün vacib olan tarixləri müəyyənləşdirirdilər.

Beləliklə, abidənin xarakterinin dəqiq müəyyən edilməməsi ona olan marağı azaltmır, əksinə, yeni-yeni fərziyyə və nəzəriyyələrin yaranmasına səbəb olmaqdadır.

# QISA-QISA

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini 2024-cü ilin iyun ayı ərzində də davam etdirmişdir.

Cari ay ərzində bu qəbildən olan tədbirlər:



**3 iyun** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəki Tibb Kollecində "Dini radikalizm, fanatizm və ekstremizm" mövzusunda;

**4 iyun** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayonunda "Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir?" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala şəhəri N.Hüseynov adına 2 nömrəli tam orta məktəbində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissədə "Dini radikalizmlə mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecində "Dini radikalizmlə mübarizə" mövzusunda;

**5 iyun** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Şəmkir Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Şəmkir rayonu Çinarlı qəsəbə tam orta məktəbində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı Balakən şəhəri Akademik Zərifə Əliyeva adına 3 nömrəli tam orta məktəbində "İnsan Hüquqları Aylığı" çərçivəsində "Dini etiqad azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı RİH və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə İsmayıllı rayonunda "Şuşa-İslam mədəniyyətinin paytaxtı" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qusar rayonu Avaran kəndində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və fəsadları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göygöl rayonunun Xaqani kənd tam orta məktəbində "Məişət zorakılığının qarşısının alınması" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Bərdə rayonu Şəhid Telman Qurbanov adına Xanqaraqoyunlu kənd tam orta məktəbində "Dini radikalizm, ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda;

**6 iyun** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş şəhər Səməd Vurğun adına 1 saylı tam orta məktəbində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhərində "İnsan Hüquqları Aylığı" çərçivəsində "İnsan hüquqları: dini etiqad azadlığı" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Beyləqan Rayon Peşə liseyində "Yeniyetmə və gəncləri radikalizmdən qoruyaq!" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar şəhər 6 saylı tam orta məktəbində "Yad təsirlərə qarşı mübarizədə milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmir rayonunda "İnsan Hüquqları Aylığı" çərçivəsində "Dini etiqad azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağsu şəhəri 4 saylı tam orta məktəbdə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin yeri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon Qaxbaş kənd 2 nömrəli tam orta məktəbində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə təhdid kimi" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Oğuz rayonunun Bucaq kənd tam orta məktəbində "Erkən nikah və məişət zorakılığına qarşı mübarizə" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Siyəzən rayonunun Zarat kənd tam orta məktəbində "İnsan Hüquqları Aylığı" çərçivəsində "Dini etiqad azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda;



**7 iyun** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sabirabad rayon Heydər Əliyev Mərkəzində "İnsan hüquqları aylığı" çərçivəsində "Dini etiqad azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayon Dəliməmmədli şəhəri M.Zeynalov adına tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonunun Vistən kənd tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda;

10 iyun – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Şimal regional Mərkəzinin birgə təşkilatçılığı ilə Quba rayonunun Talabıqışlaq kəndində "Radikal dini cərəyanlar tərəfindən insan hüquqlarının pozulması" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Bakı şəhəri Xətai RİH-in birgə təşkilatçılığı ilə Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində "İnsan hüquqları aylığı" çərçivəsində "İnsan hüquqları və dini etiqad azadlığı" mövzusunda;



**11 iyun** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Şamaxı RİH-in birgə təşkilatçılığı ilə Şamaxı Peşə Liseyində "Yeniyetmə və gəncləri radikalizmdən qoruyaq!" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Salyan rayonunun Arbatan kənd tam orta məktəbində "Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə Zaqatala rayonu Əliabad qəsəbəsi 4 nömrəli tam orta məktəbində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**12 iyun** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şirvan Peşə Liseyində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və fəsadları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər "İmamzadə Ziyarətgah" kompleksində "Müstəqilliyimiz tarixi nemətimizdir" mövzusunda;

**13 iyun** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıtda "Qərbi Azərbaycanda dini-mədəni irs" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə və DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH-in birgə təşkilatçılığı ilə Quba rayonunda Milli Qurtuluş Günü münasibətilə; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Cil kəndi "Hüseyniyyə" məscidində "Yaşıl dünya naminə həmrəylik ili" və 15 İyun - Milli Qurtuluş Günü ilə əlaqədar Lənkəran rayonunda fəaliyyət göstərən dini icmalar arasında "Heydər Əliyev və mənəvi dəyərlərimiz" mövzusunda;

**14 iyun** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran şəhər Heydər Əliyev Mərkəzində "Milli Qurtuluş Günü - Azərbaycanın dövlətçilik tarixinin şanlı səhifəsidir" mövzusunda;

**21 iyun** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba RİH-in birgə təşkilatçılığı ilə "Dini radikalizm, fanatizm, ekstremizmin mahiyyəti və fəsadları" mövzusunda;

**24 iyun** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissədə "Vətənpərvərlik ruhunun yüksəldilməsində mənəvi və dini dəyərlərin rolu" mövzusunda;

**25 iyun** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Zaqatala rayon N.Gəncəvi adına Mərkəzi Kitabxananın birgə təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin

davamı səh. 12

# QISA-QISA

əvvəli səh. 11

təşkilatçılığı ilə Mingəçevirdə "Qloballaşma dövründə gənclər arasında ailə dəyərlərinin əhəmiyyətinin təbliği, onun qorunması və möhkəmləndirilməsi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə "Dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Bərdə "ASAN" xidmət mərkəzində "Zəfər zirvəsini fəth edən şanlı Ordu" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Masallı rayonunun Qəriblər kəndində "26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri günüdür" mövzusunda;

**27 iyun** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə "Dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu" mövzusunda baş tutub.

Tədbirlərdə DQİDK-nın bölgə şöbələrinin əməkdaşları ilə yanaşı, rayon icra hakimiyyətləri və aidiyyəti qurumların nümayəndələri, rayon təhsil, gənclər və idman sektorlarının, rayon polis şöbələrinin və digər regional qurumların əməkdaşları, rayonların dini icma sədrləri və din xadimləri, QMİ-nin səlahiyyətli nümayəndələri, o cümlədən hərbçilər, şəhid ailələrinin üzvləri, müharibə veteranları, qazilər, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Çıxışlarda mövzuların aktuallığından bəhs olunub və DQİDK-nın müvafiq qurumlarla birgə həyata keçirdiyi maarifləndirmə işinin önəmi diqqətə çatdırılıb. Tədbirlərdə gənclərin formalaşması baxımından mənəvi dəyərlərimizin önəmindən bəhs edilib. Onların dünyagörüşünə, mənəvi inkişafına mənfi təsir göstərən amillərin – dini radikalizm, erkən nikah və narkomaniyanın gənclərimizin gələcəyi üçün real təhlükələrindən danışılıb. Məktəblilərin bəşəri dəyərlərə hörmətlə yanaşmasında, mənəviyyatlı, dünyagörüşlü, vətənpərvər gənclər olaraq yetişməsində ailənin, məktəbin və ictimaiyyətin rolunun danılmaz olduğu vurğulanıb.

**15 İyun** – Milli Qurtuluş Günü münasibətilə təşkil olunan tədbirlərdə natiqlər mənəvi dəyərlərimizin qorunması və inkişafında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əvəzsiz xidmətlərindən bəhs ediblər. Azərbaycançılıq məfkurəsi və onun mahiyyəti haqqında məlumat verərək bildiriblər ki, bu ideologiyanın əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün də xalqımız bu ideologiya ətrafında sıx birləşib. Ümummilli Liderin müstəqil Azərbaycan dövlətinin tarixində qoyduğu silinməz izlərdən geniş söhbət açan natiqlər bildiriblər ki, Azərbaycan adlı müstəqil dövlət bizə və bütün gələcək nəsillərə Ulu Öndərin ən böyük tarixi əmanətidir. Heydər Əliyevin zəngin dövlətçilik irsini yeni dövrün tələblərinə uyğun təkmilləşdirən Prezident İlham Əliyev xalq qarşısında verdiyi vədləri əməli işi ilə doğruldaraq daim insanların sevgisini və etimadını qazanıb.

"İnsan Hüquqları Aylığı" çərçivəsində keçirilən maarifləndirici tədbirlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 18 iyun tarixinin ölkəmizdə "İnsan Hüquqları Günü" kimi qeyd olunduğu və hər il Ombudsmanının təşəbbüsü ilə mayın 18-dən iyunun 18-dək respublikamızda bu istiqamətdə tədbirlər təşkil olunduğu diqqətə çatdırılıb. Çıxışlarda insan hüquq və azadlıqları, bu sahədə qəbul edilmiş qanunlar, qərarlar və digər normativ aktlar, ölkəmizdə bu sahədə görülən işlər, həyata keçirilən layihələr haqqında tədbir iştirakçılarına məlumat verilib. İnsan hüquqlarının tərkib hissəsi olan uşaq hüquqlarına, eləcə də onların təhsil hüququna diqqət çəkilib. Həmçinin vurğulanıb ki, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir və dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Xüsusilə qeyd olunub ki, ölkəmizdə bütün dinlərin nümayəndələrinin hüquq, inanc və azadlığına hörmətlə yanaşılır.

Çıxışlar zamanı narkomaniya, onun törətdiyi fəsadlar və bununla bağlı ölkəmizdə aparılan mübarizə tədbirlərindən də danışılıb. Habelə bu gün bütün dünyada olduğu kimi, ölkəmizdə də erkən nikahın doğurduğu fəsadlardan, cəmiyyətə vurduğu ziyandan bəhs olunub. Vurğulanıb ki, son illər Azərbaycanda ziyalı, savadlı qadınların özlərini inkişaf etdirmələri üçün münasib şərait yaradılıb. Qızların cinsi ayrı-seçkilik edilmədən təhsil almaları üçün lazım olan bütün addımlar atılıb. Lakin bu görülən işlərə baxmayaraq, kütləvi olmasa da, bəzi bölgələrdə erkən nikahlar və bunun kimi müxtəlif səbəblərdən qızların təhsildən yayınması halları baş verir. Erkən nikahla bağlı problemlərin aradan qaldırılması baxımından maarifləndirici tədbirlərin təşkili, yeniyetmə və gənclərlə müntəzəm olaraq görüşlərin keçirilməsi böyük əhəmiyyət daşıyır.

Müzakirələrlə davam edən tədbirlərdə mövzu ilə bağlı iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Almaniyada 400 mindən çox insan katolik kilsəsini tərk edib

"Associated Press" xəbər agentliyinin verdiyi məlumata görə, keçən il daha 400 min nəfər Almaniyadakı Katolik Kilsəsini rəsmi olaraq tərk edib.

İllik statistik icmalda Almaniya Yepiskopları Konfransı insanların kilsəni tərk etmə səbəblərini dəqiqləşdirməyib. Buna səbəb kilsə liderlərinin uzun müddətdir davam edən ruhanilərin sui-istifadə skandalına son qoymağa və islahat çağırışlarına cavab verməyə çalışması ola bilər.

Ötən ilin sonunda ölkənin katolik kilsəsinin təxminən 20,35 milyon üzvü var idi. Almaniya Yepiskopları Konfransı 2023-cü ildə 402 694 nəfərin kilsəni tərk etdiyini, eyni zamanda 1559 nəfərin kilsəyə qoşulduğunu və daha 4127 nəfərin geri qayıtdığını bildirib.

Almaniyada kilsənin rəsmi üzvü olan insanlar əhalinin qalan hissəsi tərəfindən ödənilən müntəzəm vergilərə əlavə olaraq, kilsəni maliyyələşdirməyə kömək edən vergi ödəyirlər. Əgər onlar öz yerli hakimiyyət orqanlarında kilsədən çıxdıqlarını qeyd etsələr, artıq bu vergini ödəməli olmayacaqlar. Aztəminatlılar, işsizlər, pensiyaçılar, tələbələr və başqaları üçün bəzi istisnalar var.

Son illərdə bir çox insan ruhanilərin sui-istifadəsi ilə bağlı qalmaqaldan sonra kilsədən üz döndərib. Bu böhrana cavab olaraq alman yepiskopları və nüfuzlu bir təşkilatın rəhbərliyi ilə üç illik islahat prosesinə, liberallaşdırıcılar və mühafizəkarlar arasında gərginliklə yadda qalan və Vatikanın açıq etirazına səbəb olan "Sinod Yolu"na start verilib.

"Rəqəmlər təhlükədən xəbər verir. Onlar Kilsənin genişmiqyaslı böhran içində olduğunu göstərir. İslahatlar öz-özünə kilsə böhranını həll etməyəcək, lakin onlar olmadan böhran daha da dərinləşəcək. Buna görə də dəyişikliklər zəruridir", - deyə Almaniya Yepiskopları Konfransının rəhbəri, Limburq yepiskopu Georg Betzing yeparxiyanın saytında açıqlama verib.

Almaniyadakı xristianlar təxminən bərabər sayda katoliklər və protestantlara bölünürlər və üzvlərini itirən təkcə Katolik Kilsəsi deyil. Lüteran Kilsəsi may ayında bildirib ki, ötən il təxminən 380 min nəfərin rəsmən Kilsədən çıxdığı qeydə alınıb. Lüteran Kilsəsi də keçmiş sui-istifadə hadisələrini araşdırır.

## Rusiyada dini əhəmiyyətli əmlakın özəlləşdirilməsini qadağan edən qanun qəbul edilib

Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması ikinci və üçüncü oxunuşda dövlət və ya bələdiyyə mülkiyyətində olan dini mülkiyyətin özəlləşdirilməsini qadağan edən qanunu qəbul edib. TASS xəbər verir ki, sənədin təşəbbüskarı müxtəlif fraksiyalara məxsus bir qrup deputat olub.

Sənədin müəlliflərindən biri, Dövlət Dumasının əmlak, torpaq və mülkiyyət münasibətləri komitəsinin sədri Sergey Qavrilovun sözlərinə görə, qanunun əsas məqsədi dini mülkiyyəti kənar müdaxilələrdən qorumaqdır. "Kafedrallardan və məbədlərdəki avadanlıqlardan tutmuş zəvvarlar üçün otellərə qədər bütün dini əmlak kilsəyə aid olmalı və yalnız təyinatı üzrə istifadə edilməlidir. Əmlakın dini məqsədlər üçün dini qurumlara verilməsi haqqında qanuna indi dövlət və ya bələdiyyə mülkiyyətində olan dini əmlakın özəlləşdirilməsinə birbaşa qadağa da daxil ediləcək. 2010-cu ildən bəri dini mülkiyyətin özgəninkiləşdirilməsi ilə bağlı aparılan bütün sövdələşmələr hər bir konkret obyekt üzrə məhkəmənin qərarı ilə etibarsız sayıla bilər", - deyə Qavrilov vurğulayıb.

Keçmişdə özəlləşdirilmiş və hazırda vətəndaşların yaşadığı dini tikili və ya oradakı mənzillər ilə bağlı məsələlər də həll edilməlidir. Deputat qeyd edib ki, onların hüquqları heç bir halda qanunvericilikdəki yeniliklər ilə pozulmamalıdır. "Özəlləşdirməyə qadağa yalnız yeni qaydalar qüvvəyə mindikdən sonra bağlanmış müqavilələrə şamil ediləcək".

# Dövlət Komitəsi "Yaşıl gələcək naminə" aksiyasını davam etdirir



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Prezident cənab İlham Əliyev tərəfindən ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Yaşıl gələcək naminə" adlı yaşıllaşdırma aksiyasını iyun ayı ərzində də davam etdirib.

Bu qəbildən olan növbəti aksiya iyunun 7-də Mingəçevir şəhəri, Ağdaş, Bərdə və Yevlax rayonlarındakı dini ibadət yerlərində keçirilib.

Mingəçevir şəhər "Heydər", Ağdaş şəhəri "Hacı İsmayıl", Yevlax rayonu Xaldan kənd "Cümə", Bərdə rayonu "İmamzadə" məscidlərini və digər ibadətgahları əhatə edən aksiyada DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin əməkdaşları, din xadimləri və 30-dan çox dini icmanın üzvləri iştirak ediblər.

İslam və qeyri-islam dini icma üzvlərini bir araya gətirərək ibadət evlərinin ətrafını, yaxınlıqdakı ictimai yerləri yaşıllaşdırmaq məqsədilə keçirilən aksiyalarda ağac və gül tingləri əkilib, abadlıq işləri aparılıb.

***

İyunun 14-də Ağdam, Ağcabədi, Füzuli, Tərtər rayonları, eləcə də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ərazisində yerləşən 30-dan artıq dini ibadət evinin ətrafında da abadlıq və yaşıllaşdırma işləri aparılıb, ağac və gül kolları əkilib.

Aksiyada DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin əməkdaşları, din xadimləri, dini icma sədrləri, Vətən müharibəsi iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

İyunun 20-də isə İmişli və Beyləqan rayonlarında yerləşən 20-dən çox dini ibadət evinin ətrafında abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Aksiyada DQİDK-nın bölgə şöbəsinin əməkdaşları, din xadimləri və dini icma sədrləri iştirak ediblər.

***

"Yaşıl gələcək naminə" yaşıllaşdırma aksiyası iyunun 28-də Saatlı və Sabirabad rayonlarında yerləşən dini ibadət yerlərinin ətrafında davam etdirilib.

Komitə əməkdaşları, din xadimləri, eləcə də dini icma nümayəndələrinin işirak etdikləri yaşıllaşdırma aksiyasında sözügedən rayonlardakı dini ibadət evlərinin ətrafında abadlıq, yaşıllaşdırma işləri aparılıb, ağac və gül kolları əkilib.



Qeyd edək ki, "Yaşıl gələcək naminə" yaşıllaşdırma aksiyası cəmiyyətdə ekoloji maarifləndirmə səviyyəsinin yüksəldilməsinə, ətraf mühitin və ictimai məkanların abadlaşdırılmasına töhfə verməklə yanaşı, müxtəlif konfessiyalara mənsub dini icma üzvlərini ümummilli məsələ ətrafında birləşdirmək, ictimaiyyətin diqqətini ətraf mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına yönəltmək məqsədi daşıyır.

Aksiya müxtəlif bölgələri əhatə etməklə cari ilin payız aylarına qədər davam edəcək.

# Buddadan 10 həyat dərsi

Budda (Siddhartha Gautama) Qədim Hindistanda buddizmin yaradıcısı və hindlilərin mənəvi lideri hesab olunur. Onun öyüd və nəsihətləri ardıcılları tərəfindən yığılaraq qələmə alınmışdır. Buddanın həyatımızı gözəlləşdirəcək və mənfi emosiyalarımızın qarşısını alacaq 10 məsləhətini təqdim edirik.

1. "Səhəng tədricən, damcı-damcı su ilə dolduğu kimi, müdrik insan da yavaş-yavaş xeyirxahlıqla dolur".

Amerikalı yazıçı və filosof Ralf Uold Emerson deyib: "Hər sənətkar nə vaxtsa həvəskar olub". Hamımız kiçik addımlarla başlayırıq. Əgər səbirli və məqsədyönlüyüksə, mütləq uğur əldə edəcəyik. Heç kim hər şeyə o saat nail olmur. Xoşbəxt o şəxsdir ki, az olanla başlamağa və cidd-cəhdlə çalışmağa hazırdır. O vaxta kimi ki, səhəng ağzınacan dolsun.

2. "Biz özümüz haqqında düşündüyümüz şeydən ibarətik. Əgər insan pis şeylər söyləyir və ya pis hərəkətlər edirsə, onu qəm-qüssə təqib edir. Əksinə, o, pak niyyətlə danışır və hərəkət edirsə, o zaman xoşbəxtliyin kölgəsi heç vaxt onun başının üzərindən əksik olmayacaqdır".

Budda deyirdi: "Hər şey bizim şüurumuzdadır. Nə düşünürsünüzsə, ona da çevrilirsiniz". Doğru həyat sürmək üçün şüurumuzu "doğru" fikirlərlə doldurmalıyıq. Çirkin düşüncələr bizi məhv edir. Düşüncələrimiz hərəkətlərimizi, hərəkətlərimiz isə nəticələrimizi müəyyənləşdirir. Düşüncə tərzimizi dəyişsək, həyatımızı dəyişmiş olarıq. Buddaya görə, "bütün səhv hərəkətlər təfəkkürdən asılıdır. Təfəkkür dəyişərsə, məgər pis davranışlar qalarmı?"

3. "Dünyada nifrətə nifrətlə son qoymaq mümkün deyil. Yalnız sevgi ona son qoya bilər. Bu, köhnə qanundur".

Birini "əbədiyyən bağışlamaq olmaz" düşüncəsindən azad etdikdə, özümüzü də xilas etmiş oluruq. Özümüzü sakitləşdirmədən, başqasını sakitləşdirə bilmərik. Bağışlamağı, mümkün qədər tez bağışlamağı öyrənməliyik. Budda söyləyib: "Dünyada ehtirasdan daha güclü yanğın, nifrətdən daha qəddar köpəkbalığı, tamahkarlıqdan daha dağıdıcı qasırğa yoxdur".

4. "Əgər nəyisə etmək lazımdırsa, bunu bütün qəlbinizlə edin".

İnkişaf etmək üçün hər gün çalışmalıyıq. Müdrik bir kəlamda deyilir: "Tanrı hər quşa yem verir, ancaq yemi yuvasına atmır". Və əgər hansısa işə başlayırıqsa, buna bütün ürəyimizi qoymalıyıq.

5. "Həmişə xeyirxahlıqla qarşılıq verin, yalnız bu yolla dünyanı daha da gözəlləşdirmək olar. Ya xeyirxahlıqla cavab verin, ya da heç cavab verməyin. Əgər pisliyə pisliklə cavab versəniz, pislik çoxalar".

İdarəçilik üzrə mütəxəssis Stiven Kovi belə deyir: "Əvvəlcə başqalarını anlamağa, daha sonra isə başqalarının sizi anlamasına çalışın". Söyləmək asandır, həyata keçirmək isə çətin: başqasının nöqteyi-nəzərini başa düşmək üçün əlimizdən gələni əsrigəməməliyik. İncidiyimizi hiss etdikdə, bunu unutmaq lazımdır. Biz başqalarına qulaq asmağa, onların fikirlərini anlamağa çalışdığımız təqdirdə rahatlığa nail olacağıq.

6. "Yüngül, harda gəldi büdrəyən, güclə saxlanılan fikrin cilovlanması xeyirdir. Fikrin cilovlanması xoşbəxtliyə gətirib çıxarır".

Özünə qalib gələn kəs hansısa hökmdardan daha güclüdür. Özünə qalib gəlmək üçün fikirlərimizə qalib gəlməliyik. Düşüncələrimizə nəzarət etməliyik. Onlar dənizdəki dalğalar tək coşmamalıdırlar.

7. "Qələbə və məğlubiyyətlərdən azad olanlar xoşbəxtdirlər".

Yalnız sizin qəlbinizdə ola biləcək şeyləri kənarda axtarmayın. Çox vaxt doğrulardan qaçmaq üçün başımız kənardakı axtarışlara qarışa bilər. Harmoniya nə yeni işdə, nə yeni maşında, nə də yeni evlilikdədir, harmoniya bizim daxilimizdədir.

8. "Sağlamlıq ən böyük bəxşiş, qənaətcillik ən yaxşı var-dövlətdir".

Minnətdar olmaq üçün həmişə bir səbəb var. Hamı bu gün səhər oyana bilməyib, kimsə dünən sonuncu dəfə yuxuya gedib. Kimsə hər gün ağır xəstəliklə mübarizə aparır. Minnətdar ürək sizi böyük edər.

9. "Külək sağlam qayanı yerindən tərpədə bilmədiyi kimi, müdrik insan da danlaq və təriflər qarşısında sarsılmazdır".

Biz çox şey bilirik, ancaq hər zaman bildiyimiz şeyi etmirik. Əgər uğursuzluq baş veribsə, bu, biz necə davranmalı olduğumuzu bilmədiyimizə görə deyil, bildiyimizi etmədiyimizə görə baş verib. Özünüzə sadiq olun.

10. "Bir şamla minlərlə şam yandırmaq olar və bununla, onun həyatı qısalmayacaq. Xoşbəxtliyi bölüşdükdə də, o, azalmır".

Xoşbəxtlik nəinki azalmır, hətta çoxalır. Bu səbəbdən də onu insanlardan gizlətməyin, ətrafdakıları daha da xeyirxah edin.

Beləliklə: "Hər deyilənə inanmayın, ancaq hər şeyi şəxsi təcrübənizdən keçirin. Özünüzə yol göstərən işıq olun".

**"Cəmiyyət və Din"**

# Qeyri-kommersiya dini qurumlarının dövlət reyestr məlumatları

**"Masallı rayonu Lürən kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 11 dekabr 2009-cu il
Qeydiyyat -si: 100109A2 – 88

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Xəlilov Akşin Rəsul oğlu, Həsənov Meydanəli Dövlət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Mahmudov Məhərrəməli Fətəlişah oğlu, Həsənov Rizvan Dövlət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 04 iyun 2024-cü il

**"Şəki rayonu Baş Göynük kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat -si: 100116C –703

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İsmayılov Əhəd Əsəd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Şabəddinov Bayram Musa oğlu, Məmmədov Əlfatin Məmməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 04 iyun 2024-cü il

**"Bərdə rayonu Lənbəran kəndi "Hacı Həmid" məscidi" dini icması**

Qeydiyyat tarixi: 20 may 2011-ci il
Qeydiyyat -si: 100111A1 – 526

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhmədov Məmməd Mahmud oğlu, Tanrıverdiyev Elxan Mirzəli oğlu, Əliyev Alı Qasım oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Abdullayev Abdulla Məhərrəm oğlu, Əyyubov İlham Tahir oğlu, Hüseynov Zamir Vaqif oğlu, Zamanov Rəşad Cümşüd oğlu, Abdullayev Məmməd İsrayıl oğlu, Əfəndiyev Fərid Əlixaliq oğlu, Hüseynov Şamxal Məhəd oğlu, Məmmədov Zöhrab Əli oğlu, Nəbiyev Nəsib Sadiq oğlu, Zamanov Nicat Çingiz oğlu, İsmayılov Sərvan İsmayıl oğlu, Rəhimov Elgün Əli oğlu, Ağayev Elnur Taryel oğlu, Məmmədov Polad Rəcəb oğlu, Hacıyev Veysəl Fariz oğlu, Məmmədov Mahmud Əmraslan oğlu, Məmmədov Yadigar Əli oğlu, Əhmədov Elnur İsmayıl oğlu, Məmmədov Əhməd Zəki oğlu, Dərgahov İsmayıl Məzahir oğlu, Məlikov Məhərrəm Vurğun oğlu, Əfəndiyev Əbdülhəmid Cövdət oğlu, Hüseynov Məhəmməd Cavad oğlu, Mahmudov Etiqad Şamil oğlu, Əliyev Nəvai Şükür oğlu, Hacıyev Rəşad Fariz oğlu, Abbasov Cəfa Məhəmməd oğlu, Hətəmov Soltan Frudun oğlu, Mahmudov Zaur İsmayıl oğlu, Abbasov Rəşad Əsəd oğlu, Əhmədov Əhməd Ənvər oğlu, Qarayev Nurəddin Şahmar oğlu, Abbasov Elman Səfər oğlu, Quliyev Əhəd Qulu oğlu, Süleymanov Mahir İsmayıl oğlu, Hətəmov Səyyar Alim oğlu, Hacıyev Qurban Tofiq oğlu, Məmmədov Baxşeiş Tahir oğlu, Quluyev Şamxal Qulu oğlu, İsmayılov Rəvan Əlövsət oğlu, Həsənov Mahin Nizami oğlu, Məmmədov Nihat İmamverdi oğlu, Əfəndiyev Məhəmməd Nazim oğlu, Teymurov Teymur Vahid oğlu, Abbasov Elgün Şöhrət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 04 iyun 2024-cü il

**"Qəbələ rayonu Kötüklü kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 15 mart 2010-cu il
Qeydiyyat -si: 100110A2 – 254

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Xudatov Seyfullah Muxtar oğlu, Əhmədov Kazım Abdurahman oğlu, Alcanov Ərzuman Qəhraman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əhmədov Bəhman Şamil oğlu, İsmayılov Akif Sabir oğlu, Məmmədov Eyyub Yusif oğlu, Balalıyev Telman Madub oğlu, Mürşüdlü Gündüz Ağababa oğlu, Məlikov Şaban Həsən oğlu, Əhmədov Pərviz Vahub oğlu, Əhmədov Əbdül Ramazan oğlu, Məmmədov Orxan Məhəmməd oğlu, Əhmədov Etibar Şirin oğlu, Əhmədov Sarvan Kamil oğlu, Əhmədli Möylam Kamil oğlu, Mahmudov Xan Əziz oğlu, İsmayılov Nurəddin Nuru oğlu, Xudatov Sərxan Sahib oğlu, Mürşüdov Ağabala Cümşüd oğlu, Məmmədov Məhəmməd Yusif oğlu, Mahmudov Əlimirzə Aslan oğlu, Əhmədov Səlim Kərim oğlu, Nəbiyev Natiq İsrafil oğlu, Əhmədov Vahub Şərif oğlu, Əhmədov Namizəd Kərim oğlu, Muxtarov Rüfət Muxtar oğlu, Alcanov Əlağa Ərziman oğlu, Seyidov Ceyhun Möhlüd oğlu, Tağıyev Eyyub Teyyub oğlu, Balalıyev Davud Mabud oğlu, Səmədov Xəlil Məmmədəli oğlu, Tağıyev Tahir Rəsul oğlu, Tağıyev Mahir Tahir oğlu, Səmədli Elvin Xəlil oğlu, Xudatov Muxtər Seyfullah oğlu, İsmayılov Nicad Tofiq oğlu, Nəbiyev Nazim İsrafil oğlu, Nəbiyev Asim Nazim oğlu, Nəbiyev Habil Əzim oğlu, Tağıyev Azay Teyub oğlu, Nəbili Röyal Səfa oğlu, Muxtarlı Ağacan Muxtar oğlu, Nəbiyev Səfa Tofiq oğlu, Nəbiyev Fazil Əzim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 07 iyun 2024-cü il

**"Bakı şəhəri Səbail rayonu İçərişəhər "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 10 noyabr 2009-cu il
Qeydiyyat -si: 100109A2 – 14

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Quluzadə Cahandar Cəsarət oğlu, Abbasov Fuad Hidayət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əkbərov Kamran Qurban oğlu, Əlizadə Elşən Əlizadə oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 07 iyun 2024-cü il

**"Masallı rayonu Sığıncaq kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2010-cu il
Qeydiyyat -si: 100110A2 – 277

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Söhbət Nəhmət oğlu, Bağırov Seymur Bəhruz oğlu, Novruzov Bəxtiyar Həsənağa oğlu, Mirzəyev Nicat Əlisəfdər oğlu, Əsədov Fikrət Əliağa oğlu, Quliyev Məmməd Zaur oğlu, Mərdəliyev Mətləb Əli oğlu, Zeynallı Murad Azər oğlu, Qurbanov Rəhim Salman oğlu, Mirzəyev Firuz Əlipaşa oğlu, Hüçeynov Müqəddəs Sədəy oğlu, Əhmədov Cavanşir Təvəkkül oğlu, Əliyev Elşən Gülhüseyn oğlu, Əliyeva Leyla İltifat qızı, Sahibli Zəfər Azad oğlu, Mirzəyev Ağahüseyn Əlihüseyn oğlu, Məmmədov Elmar Gülməmməd oğlu, Dövlətov Sadiq Xeyrulla oğlu, Abduləliyev Rəhman Abdulrəhman oğlu, Əkbərova Fatimə Əli qızı, Fərəcov Hicran Allahşükür oğlu, Muradov Rafik Təvəkkül oğlu, Zayıdov Zaur Yusif oğlu, Əkbərova Turə Ramazan qızı, Qarayev Əli Ağababa oğlu, Fərəcov Rəşad Allaşükür oğlu, Ocaqov Mahir Təvəkkül oğlu, Şahbazov Hikmət Bayram oğlu, Qurbanov Rəşad Rzabala oğlu, Niftiyev Ramil Nurəddin oğlu, Əliyev Azər Həzərxan oğlu, Əkbərov Qədiməlı Pənahəli oğlu, Məmmədzadə Fariz Mahir oğlu, Hüseynov Saleh Səfail oğlu, Vəlizadə Vəli Həsrət oğlu, Əsgərov Sübhi Qurbanqulu oğlu, Qüdrətov Daşqın İzzət oğlu, Şahbazova Günay Ağazər qızı, Quliyev Zaur Sucayət oğlu, Məmmədov Etibar Rəfail oğlu, Əliyev Əsgər Qüdrət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 iyun 2024-cü il

**"İmişli rayonu Otuziki kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat -si: 100116A – 650

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Quliyev Eldəniz Həmzə oğlu, Balacayev Balabəy Məhəmməd oğlu, Fətullayev Dadaş Qurban oğlu, Allahyarova Təzəgül Babaxan qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Cahangirov Xəqani Zamin oğlu, Həsənov Bədəl Tevan oğlu, Nuriyev Lələş İlyas oğlu, Musazadə Emil Razi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 iyun 2024-cü il

**"İmişli rayonu Soltanmuradlı kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 29 noyabr 2018-ci il
Qeydiyyat -si: 100118A–863

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cəfərov İsgəndər Şirvan oğlu, Camalov Əjdər Nadir oğlu, Camalov Camal Mahmud oğlu, Camalov Gülməmməd Salman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

İbişova Gülnarə Əliyusub qızı, Abdullayev Teyyub Katda oğlu, Abdullayeva Zenfira Cəmil qızı, Camalova Firuzə Əyyam qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 iyun 2024-cü il

**"Sabirabad rayonu Əsgərbəyli kəndi "İmam Əli" adına məscidin" dini icması**

Qeydiyyat tarixi: 24 aprel 2015-ci il
Qeydiyyat -si: 100115C – 581

davamı səh. 15

əvvəli səh. 14

# Qeyri-kommersiya dini qurumlarının dövlət reyestr məlumatları

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağammədova Məsumə Camal qızı dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Ağammədova Həmidə Əlniyaz qızı dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 20 iyun 2024-cü il

**"Şamaxı rayonu Məlikçobanlı kəndi "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 21 dekabr 2009-cu il
Qeydiyyat -si: 100109A3–119

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağazadə Bəhlul Bariz oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Allahyarov Valid Mayıl oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 20 iyun 2024-cü il

**"İmişli rayonu Qaraqaşlı kəndi "İmam Hüseyn" məscidi" dini icması**

Qeydiyyat tarixi: 10 dekabr 2020-ci il
Qeydiyyat -si: 100120A–933

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abdullayev Maarif Hilal oğlu, Abdullayev Rauf Ziyafət oğlu, Məmmədov Nurəddin İmran oğlu, Zamanov Mincivan Abbas oğlu, Abdullayev Xankərəm Zəbulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Cəfərov Qadir Zəkaray oğlu, Məmmədli Şahmar Sarvan oğlu, Alışov Eminağa Fazil oğlu, Mamedov Şahmar İbadət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 20 iyun 2024-cü il

**"İmişli rayonu Qaralar kəndi "Həzrəti Əbəlfəz" məscidi" dini icması**

Qeydiyyat tarixi: 29 noyabr 2018-ci il
Qeydiyyat -si: 100118A–864

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nəsirov Təyyub Saday oğlu, Məmmədov Halyan Əlixan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Şirinova Məhliqə Çoban qızı, Şirinov Davud Əliqulu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 20 iyun 2024-cü il

**"İmişli şəhər "İmam Həsən" məscidi" dini icması**

Qeydiyyat tarixi: 10 dekabr 2020-ci il
Qeydiyyat -si: 100120A–934

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cavad Rəfail Malik oğlu, Usubov İskəndər Balış oğlu, Qanbayev Mövsüm Kərim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əmirova Həbibə Ağamusa qızı, Əzizalıyev Nərçə İsmali oğlu, Məmmədov Əlisəfa Mavid oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 20 iyun 2024-cü il

**"İmişli şəhər "İmam Hüseyn" məscidi" dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2017-ci il
Qeydiyyat -si: 100117A–769

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qasımov Hüseyn Rəhim oğlu, Qasımov Qabil Hüseyn oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədova Cəmilə Ələkbər qızı, Məmmədov Abdul İsrafil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 27 iyun 2024-cü il

**"Yardımlı şəhər Daşkənd məhəllə məscidi" dini icması**

Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat -si: 100118D–822

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhmədova Səkinə Ağamir qızı, Xankişiyeva Ziyafət Ağaşükür qızı, Qəhrəmanova Sona Əmikişi qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Sultanov Sulduz Nağı oğlu, Sultanova Mahirə Alibaba qızı, Qubadov Səid Niyaz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 27 iyun 2024-cü il

**"Bərdə şəhəri "İmamzadə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 26 noyabr 2009-cu il
Qeydiyyat -si: 100109A2–36

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Pirimov Vüqar Tahir oğlu, Əliyev Arif Qurban oğlu, Hüseynov Nazim Zakir oğlu, Əliyev Əhəd Səməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Nərimanov Bəhram Fərman oğlu, Makfuri Ramiz Allahverdi oğlu, Teymurov Şamil Xudu oğlu, Qesari Vaqif Mirədib oğlu, Zamanov Ələsgər Yaşar oğlu, Qasımzadə Yamən Savalan oğlu, Mustafayev Məhərrəm Rəsul oğlu, Quliyev Əli Əşrəf oğlu, Xuduyev Araz İbrahim oğlu, Hüseynov Kərim Muxtar oğlu, Hüseynova Xatirə Sabir qızı, Şükürov Əkbər Dadaş oğlu, Cəfərquliyev Vidadi Əyyub oğlu, Mayılov Məmməd Kərəm oğlu, Musayev Firudun Novruz oğlu, Mehdiyev Akif Cəlil oğlu, Zamanov Yaşar Ələkbər oğlu, Qasımov Aydın Qnyaz oğlu, Ələkbərov Əbülfəz Rasim oğlu, Əliyev Zəfər İsa oğlu, Dadaşzadə Nüsrət Qüdrət oğlu, İsayev Mehman Ağa oğlu, Həsənov Sübhan Ələsgər oğlu, İmranzadə İradə Telman qızı, Quliyev Rizvan Süleyman oğlu, Hüseynova Etibar İskəndər qızı, Ağayev Eldəniz Cümşüd oğlu, Bəşirov Qəhrəman Əsgər oğlu, Əliyev Fəxrəddin Fərman oğlu, Səfərov Faiq Əhməd oğlu, Şərifov Əliş Məcid oğlu, Ağayeva Afaq Fizuli qızı, Həsənova Ceyran Bəbir qızı, Şirinov Asəf Elman oğlu, Hüsüyev Bəxtiyar Abbas oğlu, Əsədov Urfan Müseyib oğlu, İbişov Aslan Zakir oğlu, Seyidzadə Səddam Fizuli oğlu, Abbasov Elgiz Hüseyn oğlu, Abbasov Mehman Şirin oğlu, Zeynalov Rahim Zahid oğlu, Həsənov Naməd Səməd oğlu, Həsənov Rüstəm Əbülfət oğlu, Əliyev Faiq Yusif oğlu, Ağayev Telman Ağa oğlu, Vəliyeva Mehparə Bəylər qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 iyun 2024-cü il

# Romada Osmanlı sultanlarının dualı köynəklərindən ibarət sərgi açılıb



Romadakı Yunus Emre İnstitutunun (YEE) Türkiyə Mədəniyyət Mərkəzində "Dualı köynəklər" ("Dualı Gömlekler") adlı sərgi açılıb. Ekspozisiyada Osmanlı sultanlarının müharibələrdə qələbə çalmaq və bədnəzərdən qorumaq üçün geyindiyi dualı köynəklər nümayiş olunub.

İtaliyanın paytaxtında keçirilən sərgidəki ekspozisiya çərçivəsində xəttat, elmlər doktoru Mehmet Vanlıoğlu, işıq üzrə rəssam Ayşe Vanlıoğlu və 13 nəfərdən ibarət komanda tərəfindən hazırlanmış 30 iş təqdim olunub.

Sərginin açılışında çıxış edən YEE-nin Romadakı Türkiyə Mədəniyyət Mərkəzinin direktoru Zafer Kıyıcı bildirib ki, sərginin təşkilatçıları Yaponiya, Albaniya, daha sonra isə Romadakı incəsənətsevərlərə Osmanlı sultanlarının geyindiyi dualı köynəkləri təqdim etməkdən çox şad olub.

İşıq üzrə rəssam Ayşe Vanlıoğlu bildirib ki, komanda türk sultanlarının zirehlərinin altından geydikləri ornamentli naxışlı və dua yazıları olan köynəklərini yaratmaqla Osmanlı dövrünün tarixi koloritini ötürmək istəyib.

"Bir çox ölkədə və Türkiyənin bir neçə şəhərində sərgilər keçirdik və onlar böyük diqqət çəkdi. İndi Romaya gəldik", - deyə Ayşe Vanlıoğlu əlavə edib.

Rəssam eyni zamanda tədbirin İtaliyada keçirilməsinin vacibliyini qeyd edib.

"Əlbəttə ki, tarixi əlaqə olduqda, bu, bizi daha da həyəcanlandırır. Məsələn, ekspozisiyada Cem Sultanın köynəyi var. Cem Sultanın burada həbsdə olduğunu bilirik. Onun köynəyi sahibini heç vaxt tapmayıb", - deyə o vurğulayıb.

Öz növbəsində xəttat Mehmet Vanlıoğlu da bildirib ki, onun komandası 10 il boyunca sərgilərlə məşğul olub: "Biz əcdadlarımızın mədəniyyətini gənclərə ötürdüyümüz üçün çox şadıq".

Həndəsi formalar və mənalı motivlərlə yanaşı, köynəklərdə hədislər və surələr də var. Bundan əlavə, köynəklər incəsənət və estetika baxımından unikal əhəmiyyətə malikdir.

CƏMİYYƏT VƏ DİN
№ 06 (392) / İYUN 2024-CÜ İL

# Pikasso Muzeyi rəqəmsal portalını təqdim edib



Parisdəki Pikasso Muzeyi rəssamın minlərlə əsərini - esselərini, şeirlərini, müsahibələrini və digər xatirələrini, o cümlədən ictimaiyyət tərəfindən heç vaxt görülməmiş əşyaları rəqəmsallaşdırıb. Muzeyin yaratdığı yeni onlayn arxiv sayəsində kubizmin banisinin əsərlərinə indi internet bağlantısı olan istənilən yerdən daxil olmaq mümkündür.

Onlayn arxivlər muzeyin bu ayın əvvəlində açılan "Pikasso: Uduzan şəkillər" sərgisi ilə birlikdə debüt edib. Sərgidə Pikassonun çoxsaylı ilham mənbələri, o cümlədən Rembrandt və Henri Matissenin əsərləri, həmçinin jurnallar, komikslər və açıqcalar kimi gündəlik əşyalar araşdırılır.

1881-ci ildə İspaniyada anadan olan Pablo Pikasso həyatının çox hissəsini Parisdə keçirib. O, fransız rəssam Jorj Brak ilə birlikdə kubizmi inkişaf etdirməsi ilə məşhurdur. Bu hərəkat iki ölçülü və mücərrəd təsvirlərə diqqət yetirərək, Avropanın şərti təsəvvürlərinin rədd edilməsini qeyd etdi.

Bu ilin sonunda Pikasso Muzeyi tədqiqatçılara və rəssamlara dahi fırça ustasının həyatı və yaradıcılığı haqqında daha çox məlumat əldə etməyə kömək edəcək yeni tədris mərkəzi açmağı da planlaşdırır. Mərkəzin açılışına hazırlaşan işçilər keçən il təxminən 19 000 fotoşəkildən başlayaraq muzeyin kolleksiyalarını rəqəmsallaşdırmağa başlayıblar. Muzey gələcəkdə daha 200.000 sənədi rəqəmsallaşdırmağa və portala yükləməyə ümid edir.

# Tədqiqat: Yaşlı vaxtda fiziki məşqlər sağlamlığa müsbət təsir göstərir

Danimarka Universitet Xəstəxanasının əməkdaşları idmanla məşğul olmağa başlayan yaşlı insanların bir neçə il güclü qaldığını və daha uzun ömür sürə biləcəyini göstərən araşdırma aparıblar.

Tədqiqat zamanı 62 yaşdan yuxarı 349 insan fiziki məşqlərin sağlamlığa və əzələ gücünə necə təsir göstərə biləcəyini öyrənmək məqsədilə dörd il ərzində müşahidə olunub.

Tədqiqat iştirakçıları üç qrupa bölünüb. Onların üçdə biri idman zalında bir il ərzində ağır çəki ilə məşq edib, ikinci üçdəbiri eyni müddət ərzində elastik bantlar ilə orta intensivlikdə bədən çəkisi məşqləri edib, qalan qrupa isə gündəlik həyat tərzi sürməyə icazə verilib.

"BMJ Open Sports & Exercise Medicine" elmi jurnalında dərc edilən nəticələr intensiv məşqlə məşğul olan qrupun ayaq gücünü saxladığını, digər qruplarda iştirak edənlərin isə itirdiyini göstərib.

"Nəticələr bir qədər təəccüblüdür, lakin məmnuniyyətlə demək istəyirəm ki, bir il məşq etməklə həqiqətən də fiziki inkişafa təsir etmək olar. Hətta qocalıqda belə fiziki məşqləri bir qədər artırmalısınız", – deyə Kopenhagendəki Bispebyerq xəstəxanasının idman tibbi üzrə mütəxəssisi Mads Blox-İbenfeldt bildirir.

## Bakı və Abşeron üzrə namaz vaxtları (iyun - 2024)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:28 | 05:14 | 12:44 | 17:57 | 20:31 | 21:52 |
| 2 | 03:29 | 05:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 3 | 03:29 | 05:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 4 | 03:30 | 05:16 | 12:45 | 17:57 | 20:31 | 21:51 |
| 5 | 03:31 | 05:16 | 12:45 | 17:57 | 20:30 | 21:51 |
| 6 | 03:32 | 05:17 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 7 | 03:33 | 05:18 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 8 | 03:34 | 05:18 | 12:46 | 17:57 | 20:29 | 21:49 |
| 9 | 03:35 | 05:19 | 12:46 | 17:57 | 20:29 | 21:48 |
| 10 | 03:36 | 05:20 | 12:46 | 17:57 | 20:28 | 21:48 |
| 11 | 03:37 | 05:20 | 12:46 | 17:57 | 20:28 | 21:47 |
| 12 | 03:38 | 05:21 | 12:46 | 17:56 | 20:27 | 21:46 |
| 13 | 03:39 | 05:22 | 12:46 | 17:56 | 20:27 | 21:45 |
| 14 | 03:40 | 05:23 | 12:46 | 17:56 | 20:26 | 21:44 |
| 15 | 03:41 | 05:23 | 12:47 | 17:56 | 20:26 | 21:43 |
| 16 | 03:42 | 05:24 | 12:47 | 17:55 | 20:25 | 21:42 |
| 17 | 03:44 | 05:25 | 12:47 | 17:55 | 20:24 | 21:41 |
| 18 | 03:45 | 05:26 | 12:47 | 17:55 | 20:23 | 21:40 |
| 19 | 03:46 | 05:27 | 12:47 | 17:54 | 20:23 | 21:39 |
| 20 | 03:47 | 05:27 | 12:47 | 17:54 | 20:22 | 21:38 |
| 21 | 03:48 | 05:28 | 12:47 | 17:54 | 20:21 | 21:37 |
| 22 | 03:50 | 05:29 | 12:47 | 17:53 | 20:20 | 21:36 |
| 23 | 03:51 | 05:30 | 12:47 | 17:53 | 20:19 | 21:35 |
| 24 | 03:52 | 05:31 | 12:47 | 17:52 | 20:19 | 21:33 |
| 25 | 03:54 | 05:32 | 12:47 | 17:52 | 20:18 | 21:32 |
| 26 | 03:55 | 05:33 | 12:47 | 17:51 | 20:17 | 21:31 |
| 27 | 03:56 | 05:34 | 12:47 | 17:51 | 20:16 | 21:30 |
| 28 | 03:58 | 05:35 | 12:47 | 17:50 | 20:15 | 21:28 |
| 29 | 03:59 | 05:35 | 12:47 | 17:50 | 20:14 | 21:27 |
| 30 | 04:00 | 05:36 | 12:47 | 17:49 | 20:12 | 21:25 |
| 31 | 04:02 | 05:37 | 12:47 | 17:48 | 20:11 | 21:24 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Honkonq və Sinqapur əcnəbilərin yaşamaları üçün ən bahalı şəhərlərdir



Honkonq (Çin) və Sinqapur dünyada əcnəbilərin yaşamaları üçün ən baha şəhərlər siyahısına başçılıq edir.

Bu barədə ABŞ-nin "Mercer" konsaltinq şirkətinin qiymətləndirmələrinin nəticəsi əsasında hazırlanan hesabatda bildirilir.

Qiymətləndirmə 226 şəhər üzrə 200 amilə, o cümlədən mənzil kirayəsi, nəqliyyat və əyləncə xidmətləri, ərzaq, gündəlik tələbat mallar və geyimlərin qiymətlərinə əsasən aparılıb.

Siyahıda sonrakı 4 yeri İsveçrənin Sürix, Cenevrə, Bazel və Bern şəhərləri, ilk onluğun qalan yerlərini isə Nyu-York, London, Nassau (Baham adaları) və Los-Anceles tutur.

"Mercer"in ekspertlərinin rəyinə əsasən, əcnəbilərin yaşamaları üçün ən ucuz şəhərlər isə Nigeriyanın Abuca və Laqos, Pakistanın İslamabad və Karaçi şəhərləri, habelə Bişkek, Blanayr (Malavi), Düşənbə, Durban (CAR), Vindhuk (Namibiya) və Havanadır.

## Yadigar söz

**Konfutsi**

*Ədalət qütb ulduzu kimi yerində dayanar və geri qalan hər şey onun ətrafında dönər.*

Baş redaktor Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894